QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!

# SƏS

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

№ 158 (5146) **31 avqust** 2016-cı il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiyməti 40 qəpik**

# Yenilməz ordu ilə real qələbələrə doğru

*İlham Əliyev: "Bu gün Azərbaycan Ordusu dünya miqyasında güclü ordular sırasındadır və aprel döyüşləri bunu bir daha sübut etdi"*

Səh 3




İlham Əliyev: "Yaxın gələcəkdə "Abşeron" layihəsi üzrə qaz istehsalının başlanması gözlənilir"



2

YAP Sədrinin müavini Əli Əhmədov Avropa İttifaqının Azərbaycandakı nümayəndəliyinin rəhbəri xanım Malena Mardı qəbul edib



4

"Multikulturalizm və tolerantlıq xalqımızın həyat tərzinə çevrilib"



4

Sosial evlərin tikintisinə başlanılır



10

Qeyri-rəsmi müstəmləkə - Nüfuzlu nəşr Ermənistandan yazdı



10

Xətaidə bina yanğını necə baş verib?



7

13

Erməni baş redaktor: "Qarabağda mavi yanacağın qiyməti Ermənistandan iki dəfə bahadır"



6

Azərbaycan Xarici İşlər Nazirliyinin bəyanatı



9

Azər Həsrət: "Gülənçilərlə vəhhabiləri birləşdirən çox amillər var"



# İlham Əliyev: “Bizim əlaqələrimiz çoxşaxəlidir”

*Azərbaycan Prezidenti İlham Əliyev Yaponiya Xarici İşlər Nazirliyinin parlamentar vitse-nazirini qəbul edib*



***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 30-da Yaponiya Xarici İşlər Nazirliyinin parlamentar vitse-naziri Motome Takisavanı qəbul edib. Dövlətimizin başçısı Motome Takisavanın ölkəmizə səfərinin Azərbaycan ilə yaxından tanış olmaq üçün yaxşı imkan yaratdığını, ölkələrimiz arasındakı mövcud dostluq əlaqələrinin daha da möhkəmləndirilməsi işinə xidmət edəcəyinə ümidvar olduğunu bildirdi.***

İyirmi ildən artıq bir müddət ərzində ölkələrimizin uğurlu əməkdaşlığının həyata keçirildiyini deyən Prezident İlham Əliyev əlaqələrimizin bir çox sahələri əhatə etdiyini vurğuladı. Ölkələrimiz arasında möhkəm siyasi əlaqələrin mövcud olduğunu qeyd edən dövlətimizin başçısı Yaponiyanın çoxlu sayda şirkətlərinin ölkəmizdə müxtəlif layihələrdə iştirak etdiyini, biznes strukturları arasında əlaqələrin yaxşı perspektivləri olduğunu bildirdi. “Bizim əlaqələrimiz çoxşaxəlidir”, - deyən Prezident İlham Əliyev əməkdaşlığımızın bundan sonra da inkişaf edəcəyinə və möhkəmlənəcəyinə əminliyini ifadə etdi, bu səfərin əlaqələrimizin gələcək inkişaf yolunun müəyyənləşdirilməsi baxımından önəmini vurğuladı.

Söhbət zamanı ölkələrimiz arasında iqtisadi əlaqələrin yeni mərhələyə qaldırılması üçün əlverişli imkanların olduğu qeyd edildi, neft-qaz, yüksək texnologiyalar, kənd təsərrüfatı, əczaçılıq, təhsil və digər sahələrdə əməkdaşlıq haqqında ətraflı fikir mübadiləsi aparıldı, bu sahələrin yaxşı perspektivləri olduğu bildirildi.

Prezident İlham Əliyevin idmanı qəlbən sevən bir dövlət xadimi olması barədə məlumatlı olduqlarını deyən Motome Takisava Azərbaycanın idman sahəsində əldə etdiyi uğurların maraqla izlənildiyini bildirdi. O, birinci Avropa Oyunlarının Bakıda uğurla keçirildiyini vurğulayaraq Azərbaycan Respublikasının Prezidentinə 2020-ci il Tokio Olimpiadasına Yaponiya tərəfinin dəvətini çatdırdı. Qonaq Azərbaycan və Yaponiya idmançılarının Rio-de-Janeyro Olimpiadasında uğurlu nəticələr əldə etməsini məmnunluqla qeyd etdi. Dövlətimizin başçısı 2020-ci il Yay Olimpiya Oyunlarının Tokioda keçirilməsi ilə bağlı təbriklərini çatdırdı və bu tədbirin də yüksək səviyyədə təşkil olunacağına əminliyini ifadə etdi.

# İlham Əliyev: “Yaxın gələcəkdə “Abşeron” layihəsi üzrə qaz istehsalının başlanması gözlənilir”

*Azərbaycan Prezidenti İlham Əliyev Qaz İxrac edən Ölkələrin Forumunun baş katibini qəbul edib*



İlham Əliyev: “Yaxın gələcəkdə “Abşeron” layihəsi üzrə qaz istehsalının başlanması gözlənilir”

*Azərbaycan Prezidenti İlham*

*Əliyev Qaz İxrac edən Ölkələrin Forumunun baş katibini qəbul edib*

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 30-da Qaz İxrac edən Ölkələrin Forumunun baş katibi Seyid Məhəmməd Hüseyn Adelini qəbul edib. Seyid Məhəmməd Hüseyn Adeli bundan əvvəl Prezident İlham Əliyev ilə keçirdiyi görüşü xatırlayaraq Azərbaycanın Qaz İxrac edən Ölkələrin Forumunda müşahidəçi üzv***

## Rəsmi xronika

Azərbaycan Prezidenti İlham Əliyev Cənubi Qafqaz regionunda alman məskənlərinin salınmasının 200 illiyi haqqında Sərəncam imzalayıb.

* * *

Azərbaycan Prezidenti İlham Əliyev Qırğız Respublikasının Prezidenti Almazbek Atambayevə təbrik məktubu ünvanlayıb. Təbrikdə deyilir: “Milli bayramınız - Müstəqillik Günü münasibətilə Sizi və bütün Qırğızıstan xalqını Azərbaycan xalqı adından və şəxsən öz adımdan ürəkdən təbrik edirəm. Əminəm ki, xalqlarımızı bir-birinə bağlayan çoxəsrlik dostluq telləri və xeyirxah ənənələr bundan sonra da Azərbaycan-Qırğızıstan ikitərəfli münasibətlərinin genişlənməsi üçün əsas olacaqdır. Hörmətli Almazbek Şarşenoviç, Sizə möhkəm cansağlığı və uğurlar, qardaş Qırğızıstan xalqına sülh və firavanlıq diləyirəm”.

* * *

Azərbaycan Prezidenti İlham Əliyev Şəki şəhərinin Aşağı Göynük-Baş Göynük-Baş Şabalıd avtomobil yolunun tikintisi ilə bağlı əlavə tədbirlər haqqında Sərəncam imzalayıb. Sərəncamda qeyd olunur ki, 18 min nəfər əhalinin yaşadığı 3 yaşayış məntəqəsini birləşdirən Aşağı Göynük-Baş Göynük-Baş Şabalıd avtomobil yolunun tikintisinin başa çatdırılması məqsədi ilə Azərbaycan Respublikasının 2016-cı il dövlət büdcəsində “Avtomobil Yolları” Məqsədli Büdcə Fondunda nəzərdə tutulmuş vəsaitdən 1,5 milyon manat ayrılsın. Maliyyə Nazirliyinə və “Azəravtoyol” Açıq Səhmdar Cəmiyyətinə bu sərəncamda nəzərdə tutulan məbləğdə maliyyələşməni və tikinti işlərini müəyyən olunmuş qaydada təmin etmələri tapşırılıb.

* * *

Azərbaycan Prezidenti İlham Əliyev Malayziyanın XIV Ali Başçısı Əl-Mutasimu Billahi Muhibbuddin Tuanku əl-Hac Abdul Halim Muadzam Şah ibni əl-Mərhum Sultan Badlişaha təbrik məktubu ünvanlayıb. Təbrikdə deyilir: “Malayziyanın milli bayramı münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza şəxsən öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi yetirirəm. Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı və xoşbəxtlik, dost Malayziya xalqına əmin-amanlıq və firavanlıq diləyirəm”.

# Yenilməz ordu ilə real qələbələrə doğru

*İlham Əliyev: "Bu gün Azərbaycan Ordusu dünya miqyasında güclü ordular sırasındadır və aprel döyüşləri bunu bir daha sübut etdi"*

***Hər bir müstəqli dövlət mövcudluğunu, təhlükəsizliyini məhz silahlı qüvvələr vasitəsilə təmin edir. Bu isə güclü dövlətin apardığı güclü siyasətin məntiqi nəticəsitdir. Məhz bu səbəbdən də, güclü ordu ilə güclü dövlət anlayışı vəhdət təşkil edir və müstəqil dövlətin nüfuzu iqtisadi-siyasi və elmi potensialı ilə yanaşı, onun malik olduğu ordusunun qüdrəti ilə də ölçülür. Aprelin 2-dən başlayaraq, Ermənistanın hərbi hissələrinin təmas xəttində Azərbaycanın işğal altında olan ərazilərində yerləşən Azərbaycanın cəbhəboyu mövqelərini iriçaplı silahlar, minaatanlar, qumbaraatan və artilleriya qurğularından intensiv atəşə tutaraq, qoşunların təmas xəttində növbəti təxribatlarının uğurla qarşısının alınması, məhz müstəqil Azərbaycanın peşəkar hərbçi kadrlarının, güclü maddi-texniki bazaya, müasir texnika və silahlara malik olan nizami ordusunun olmasının nəticəsidir.***

Hadisələrlə bağlı Ali Baş Komandan, ölkə Prezidenti İlham Əliyev qeyd etmişdir ki, orduda döyüş qabiliyyəti, mənəvi-psixoloji durum, vətənpərvərlik ruhu çox yüksəkdir: "Bunu aprel döyüşləri də göstərdi. Erməni təxribatına ordumuz layiqli cavab verdi. Bu döyüşlər tarixi qələbə idi".

Əslində, bu, gözlənilən idi. Müdrik insanların dəfələrlə söylədiyi "Siyasətin ədalətli, siyasətçinin adil olması onu dəstəkləyənlərin sırasına baxanda məlum olur" -ifadəsi bu gün Azərbaycanda öz təsdiqini tapır. Çünki bizim dövlətin yeritdiyi siyasət də, dövlət başçımızın siyasi fəaliyyəti də dünyanın hər yerində dəstəklənir bu siyasətin nəticəsi də ancaq qələbə olmalıdır!

Eyni zamanda, bu gün Azərbaycanımızda DÖVLƏT-XALQ birliyi möhkəmdir və məhz bu birliyin məntiqi nəticəsi də qələbədir!

## Ali Baş Komandan daim ordunun yanındadır

Mayın 1-də Ali Baş Komandan, ölkə Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva cəbhə xəttinə - Tərtər, Ağdam və Bərdə rayonlarına səfəri zamanı hərbi hissədə əsgər və zabitlərin xidmət şəraiti, onların təminatı ilə tanış olması, şəxsi heyətlə və həmin rayonların sakinləri ilə görüşü, onlara qayğısı bir daha hər kəsdə böyük ruh yüksəkliyi yaratdı. Ölkə başçısı birmənalı tərzdə bildirdi ki, biz öz torpaqlarımızdan imtina etməyəcəyik, ermənilər ölmək istəmirsə, buradan çıxıb getsin.

Eyni zamanda, dövlət başçısı çıxışında ərazi bütövlüyümüzü tezliklə bərpa edəcəyimizi bəyan etdi. Bu, həm Azərbaycan Ordusunun qarşısına qoyulan vəzifə, həm də ermənilərə yönələn bir mesaj idi. Dövlət başçısı açıq şəkildə qarşı tərəfə ismarıc yolladı ki, işğal faktı davam etdikcə, Azərbaycan Ordusu sizlərə heç bir dinclik verməyəcək.

Beləliklə, insanlar gördülər ki, onlar tək deyil və həmin bölgədə düşmənin raket zərbələri altında yaşayan əhalinin arxasında birbaşa Prezident dayanıb. Ordu da eyni hissləri keçirdi və başa düşdü ki, Ali Baş Komandan istənilən vaxt onların hər bir tələbatını ödəməyə hazırdır. Ali Baş Komandanın əsgərlərlə bu cür görüşü ordunun döyüş əzmini xeyli yüksəltməklə yanaşı, ordumuzun qarşısına yeni-yeni vəzifələr qoydu. "Aprel hadisələri xalqımızı daha da birləşdirdi. Azərbaycan xalqı dövlətə, ordumuza çox böyük dəstək göstərdi. Bu, xalqımızın mətinliyini, səviyyəsini göstərir" deyən Prezident İlham Əliyev Azərbaycan Ordusunun xalqdan böyük dəstək aldığını bir daha bəyan etdi.

## Güclənən qüdrətli dövlətin qüdrətli ordusu

Bu gün Azərbaycan Ordusu dünya miqyasında güclü ordular sırasındadır. Hazırda ordumuz 50-ci yerdədir. Bu da əsassız deyil. Çünki Ali Baş Komandan, Prezident İlham Əliyevin apardığı ardıcıl siyasətin nəticəsində, bu gün ordumuza göstərilən diqqət sayəsində silahlı qüvvələrimiz müasir silah-sursat, döyüş texnikası, o cümlədən təyyarə, helikopter və artilleriya sistemlərinin keyfiyyəti, şəxsi heyətin sayı və döyüş əzmi baxımından düşmən ordusunu dəfələrlə qabaqlayır. Çox böyük qürurverici haldır ki, bu dəfə də silahlı qüvvələrin bütün şəxsi heyəti qisas və qələbə hissi ilə yaşayır, torpaqlarımızı işğaldan azad etmək uğrunda müqəddəs borcunu yerinə yetirməyə qadir olduqlarını nümayiş etdirdilər. Təbii ki, bütün bunlar Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Ali Baş Komandanı İlham Əliyevin tövsiyə və tapşırıqları əsasında reallaşdırılır.

Bu faktı da, xüsusi olaraq vurğulamaq lazımdır ki, bütün bu nailiyyətlər Prezident İlham Əliyevin ordu quruculuğu ilə bağlı əvvəlcədən gördüyü hərtərəfli tədbirlərin nəticəsidir ki, bu gün düşmənə sarsıdıcı zərbə vurmağa imkan verir. Müdafiə məqsədilə ayrılan hərbi xərclərin ildən-ilə artması, eləcə də ölkədə hərbi təyinatlı məhsulların istehsalını həyata keçirən sənaye müəssisələrinin yaradılması ordu quruculuğu baxımından vacib əhəmiyyətə malikdir. Azərbaycan müxtəlif xarici ölkələrdən müasir hərbi texnikalar alır, ordunun arsenalında olan bir sıra texnikaların modernləşdirilməsini həyata keçirir. Əvvəllər xaricdən alınan bəzi hərbi texnika və döyüş sursatları artıq Müdafiə Sənayesi Nazirliyinin tabeliyində olan müəssisələrdə istehsal olunur. Azərbaycanın yerli istehsal hesabına ordusunun müxtəlif hərbi ləvazimatlara və döyüş sursatlarına olan ehtiyacını ödəməsi ölkəmizin Ermənistan qarşısında üstünlüyünü daha da artırır. Hərbi xərclərin artması ordu quruculuğu prosesini daha da sürətləndirmişdir və bunu Azərbaycan Ordusunun bütün qoşun birləşmələrinin timsalında görmək mümkündür. İldən-ilə dövlət büdcəsindən orduya ayrılan vəsaitin artımı hərbi qulluqçuların - generalların, baş və kiçik zabitlərin, gizirlərin, miçmanların, çavuşların, əsgərlərin, matrosların, müddətdən artıq hərbi qulluqçuların sosial təminatının gücləndirilməsi, mənzil şəraitlərinin daha da yaxşılaşdırılması, ordunun maddi-texniki bazasının modernləşdirilməsi ölkənin müdafiə sisteminin gücləndirilməsi deməkdir.

Beləliklə, Silahlı Qüvvələrimizin Ali Baş Komandanının ölkənin ərazi bütövlüyünün bərpası istiqamətində nümayiş etdirdiyi qətiyyət, Milli Ordumuzun işğalçı dövlətin təxribatlarına tutarlı cavab verərək, düşmənin geri çəkilməsinə nail olması və bu kimi bir sıra başqa amillər həm ölkə əhalisi, həm də dünya ictimaiyyəti tərəfindən böyük hörmət və ehtiramla qarşılanan reallıqdır. Bu, Azərbaycan dövlətinin, Azərbaycan Ordusunun, ümumiyyətlə, uzun illərdən bəri edən inkişafın reallığı və nəticəsi idi. Çünki hər bir qələbənin arxasında Azərbaycan tərəqqisi dayanır. Bu, Ulu Öndər Heydər Əliyev siyasətinin təməlində dayanan və ölkə başçısı, Ali Baş Komandanımız Cənab İlham Əliyev tərəfindən davam etdirilən, yaşadılan tərəqqinin məntiqi nəticəsidir!

**RƏFİQƏ KAMALQIZI**







# “Multikulturalizm və tolerantlıq xalqımızın həyat tərzinə çevrilib”

## *Göyçayda multikultural və tolerant dəyərlər mövzusunda seminar-müşavirə keçirilib*




***Avqustun 30-da Göyçay rayonunda Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi və rayon icra hakimiyyətinin birgə təşkilatçılığı ilə “Multikultural və tolerant dəyərlərimiz: tarixilik, varislik, müasirlik” mövzusunda seminar-müşavirə keçirilib.***

AZƏRTAC xəbər verir ki, Heydər Əliyev Mərkəzində təşkil olunan tədbirin iştirakçıları Ulu Öndərin abidəsini ziyarət edərək önünə gül dəstələri düzüblər. Sonra Heydər Əliyev Mərkəzi ilə tanışlıq olub.



Seminar-müşavirədə rayon rəhbərliyi, hüquq mühafizə orqanlarının əməkdaşları, dini icmaların rəhbərləri, din xadimləri, ilahiyyatçılar, ictimaiyyət nümayəndələri, ziyalılar və gənclər iştirak ediblər. Konfransda əvvəlcə dini ekstremizm və radikalizmin fəsadlarından bəhs edən “Fitnə” sənədli filmi nümayiş olunub.

Azərbaycanın multikulturalizm ənənələrinin daha dərindən mənimsənilməsi, milli mənəvi dəyərlərin qorunub saxlanılması və təşviqi, eləcə də bu sahədə qarşıda duran vəzifələrin müzakirə edilməsi məqsədilə keçirilən tədbirdə çıxış edən Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı ölkəmizdə müxtəlif dinlərin və azsaylı xalqların nümayəndələrinin yaşadığını və dini konfessiyaların uzun əsrlərdən bəri sərbəst və qarşılıqlı anlaşma şəraitində fəaliyyət göstərdiyini bildirib. O qeyd edib ki, ölkəmizdə hər zaman başqa xalqların dilinə, dininə, mədəniyyətinə daim hörmətlə yanaşılıb.

Mübariz Qurbanlı bildirib ki, Azərbaycanda hökm sürən multikultural və tolerant mühitin, ideoloji prinsiplərin ana xəttini ümummilli lider Heydər Əliyevin müəyyən etdiyi azərbaycançılıq təşkil edir. Dünyanın hansı ölkəsində yaşamağımızdan asılı olmayaraq, bizi bu prinsiplər birləşdirir. Eyni zamanda, Azərbaycan İslam ölkəsidir və mənəvi dəyərlərimizin tərkib hissəsi olan İslam dininə dünyada bir milyarddan çox insan etiqad edir. Biz də bu dəyərlərə sahib ölkələrdən biri kimi İslamı yad təsirlərdən qorumalıyıq. Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra xalqımızın milli mənəvi dəyərlərinə qayıdışı sürətlənib. Bu gün ölkəmizdə dinlərarası münasibətlər ən yüksək səviyyədədir. Hər kəsin etiqad azadlığı təmin olunur. Bununla yanaşı, milli mənəvi dəyərlərimizin tərkib hissəsi olan, o cümlədən ölkə əhalisinin əksəriyyətinin etiqad etdiyi İslam dini və mədəniyyətinin təbliği prioritet məsələlərdəndir. Diqqətə çatdırılıb ki, Prezident İlham Əliyev mütəmadi olaraq dini icmaların liderləri ilə görüşür, onların ehtiyac və problemləri ilə maraqlanır. Dövlətin bu sahədə yürütdüyü siyasət nəticəsində Azərbaycan cəmiyyətində dinlərarası münasibətdə dözümlülük özünü bariz şəkildə göstərir və bunun nəticəsində etnik, dini nifrət hissi mövcud deyil. Həyata keçirilən uğurlu daxili və xarici siyasət sayəsində multikulturalizm və tolerantlıq xalqımızın həyat tərzinə çevrilib. Dövlətimizin başçısının müvafiq Sərəncamı ilə 2016-cı ilin ölkəmizdə “Multikulturalizm ili” elan olunduğunu xatırladan Mübariz Qurbanlı onu da qeyd edib ki, bu, Azərbaycan xalqının digər millətlərlə dostluq, qardaşlıq şəraitində yaşadığını bütün dünyaya bir daha nümayiş etdirir. Çoxmillətli, çoxkonfessiyalı respublika kimi ölkəmizdə bütün xalqların, dinlərin, etnik qrupların nümayəndələri eyni hüquq və azadlığa malikdir.

Konfransda Göyçay Rayon İcra Hakimiyyətinin başçısı Mehdi Səlimzadə çıxış edərək Azərbaycanda dövlət-din münasibətlərinin əsasının ümummilli lider Heydər Əliyev tərəfindən qoyulduğunu, bu gün isə həmin münasibətlərin bütün hüquqi dövlətlərdə olduğu kimi qanunlarla tənzimləndiyini vurğulayıb. Bildirib ki, ölkədə ali hüquqi qüvvəyə malik Azərbaycan Respublikasının Konstitusiyası fəaliyyət göstərir. Konstitusiyada beynəlxalq hüququn hamılıqla tanındığı norma və prinsiplər əksini tapmaqla yanaşı, bütün növ fundamental insan, vətəndaş hüquq və azadlıqları təsbit edilib. Bu gün Azərbaycanda bütün dinlərin qanunvericiliyə uyğun azad və sərbəst fəaliyyətinə icazə verilir.

Daha sonra Milli Məclisin deputatı Elman Nəsirov, Qafqaz Müsəlmanları İdarəsinin nümayəndəsi, Göyçayın “Yuxarı məscid” dini icmasının sədri Rəsul Kazımov çıxış ediblər. Bildirilib ki, Prezident İlham Əliyevin apardığı doğru, düzgün və məqsədyönlü siyasət nəticəsində multikulturalizm Azərbaycanın dövlət siyasətinə, xalqımızın həyat tərzinə çevrilib. Azərbaycan milli dövlət olaraq təkcə özünün deyil, dünyanın qlobal problemlərinin həllində fəal iştirak edir. Bu il BMT-nin Sivilizasiyalar Alyansının VII Qlobal Forumunun Bakıda keçirilməsi bunun bariz nümunəsidir. Sonda mövzu ətrafında müzakirələr aparılıb və iştirakçıların sualları cavablandırılıb.

Seminar-müşavirədən sonra komitə sədri Mübariz Qurbanlı Göyçay şəhərindəki məscidləri ziyarət edib, dini icmaların fəaliyyəti ilə tanış olub, məscidlərə kitablar hədiyyə edib.



# YAP Sədrinin müavini Əli Əhmədov Avropa İttifaqının Azərbaycandakı nümayəndəliyinin rəhbəri xanım Malena Mardı qəbul edib

Azərbaycan Respublikası Baş nazirinin müavini, YAP Sədrinin müavini - İcra katibi Əli Əhmədov avqustun 30-da Avropa İttifaqının Azərbaycan Respublikasındakı nümayəndəliyinin rəhbəri xanım Malena Mardı partiyanın mənzil qərargahında qəbul edib. Görüşdə qarşılıqlı maraq doğuran məsələlərlə bağlı ətraflı fikir mübadiləsi aparılıb. YAP Sədrinin müavini Əli Əhmədov Azərbaycan ilə Avropa İttifaqı arasındakı əməkdaşlığın mövcud durumundan bəhs edərək münasibətlərin inkişafı üçün geniş perspektivlərin olduğunu bildirib. Öz növbəsində, xanım Malena Mard Avropa İttifaqının Azərbaycanla kənd təsərrüfatı, təhsil, energetika və digər sahələrdə əməkdaşlığa böyük önəm verdiyini qeyd edib. Görüşdə, həmçinin sentyabrın 26-da Azərbaycan Respublikasının Konstitusiyasına əlavə və dəyişikliklərlə bağlı keçiriləcək referenduma hazırlıqla əlaqədar həyata keçirilən tədbirlərdən bəhs edilib. YAP İcra katibinin müavini, Milli Məclisin komitə sədri Siyavuş Novruzov görüşdə iştirak edib.

# Enerji İqtisadiyyatı üzrə Beynəlxalq Assosiasiyanın I Avrasiya konfransı öz işini davam etdirib




Enerji İqtisadiyyatı üzrə Beynəlxalq Assosiasiyanın (IAEE) təşkilatçılığı ilə Bakıda keçirilən “Xəzər regionunda inkişaf etməkdə olan enerji iqtisadiyyatları: dəyişikliklər və imkanlar” mövzusunda I Avrasiya konfransı işini avqustun 30-da davam etdirib. AZƏRTAC xəbər verir ki, “Regional enerji təhlükəsizliyi” adlı plenar sessiyada “BP Azerbaijan”ın əlaqələr, xarici işlər və strategiya üzrə vitse-prezidenti Bəxtiyar Aslanbəyli Azərbaycan təbii qazının Avropaya nəqlini nəzərdə tutan “Cənub Qaz Dəhlizi” və onun tərkib hissələri təşkil edən Cənubi Qafqaz Boru Kəmərinin Genişləndirilməsi, Trans-Anadolu (TANAP) və Trans-Adriatik qaz boru kəməri (TAP) layihələrinin icrasının son vəziyyəti barədə məlumat verib. B.Aslanbəyli “Şahdəniz 1” və “Şahdəniz 2” layihələri üzrə həyata keçirilən işlərdən də danışıb.

Azərbaycanın Xarici İşlər Nazirliyinin enerji məsələləri üzrə nümayəndəsi Orxan Zeynalov “Cənub Qaz Dəhlizi”nin Avropa üçün enerji mənbələrinin və infrastrukturunun şaxələndirilməsi baxımından əhəmiyyətini qeyd edib. Hellenic Enerji İqtisadiyyatı üzrə Assosiasiyasının (HAEE) direktoru Kostas Andriosopoulos mayeləşdirilmiş təbii qaz (liquefied natural gas-LNG) bazarının 2030-cu ilə qədər iki dəfəyədək artaraq illik 470 milyon tona çatacağının proqnozlaşdırıldığını bildirib. Qeyd edib ki, pərakəndə LNG bazarının isə 95 milyon ton olacağı nəzərdə tutulur.

Atlantik Şurasının (Atlantic Council) enerji məsələləri üzrə eksperti Con Roberts deyib ki, Xəzərin Azərbaycan sektorunda “Şahdəniz 3” layihəsi üzrə təbii qaz ehtiyatlarının 500 milyard kubmetr həcmində olacağı nəzərdə tutulur. “Şahdəniz 1” və “Şahdəniz 2” layihələri üzrə ümumilikdə 1,2 trilyon kubmetr həcmində ehtiyatlar var. 2018-2025-ci illərdə hər iki layihə üzrə ildə ümumilikdə 25 milyard kubmetr həcmində qaz ixrac etmək mümkün ola bilər. Konfransın ikinci günündə Azərbaycan, Türkiyə, ABŞ, Çin, Koreya Respublikası, Qazaxıstan, Avstriya, Ukrayna və Yaponiyadan olan ekspertlərin mühazirələri dinlənilib. Sessiyalarda Xəzər regionunda ucuz enerji qiymətləri fonunda alternativ və bərpa olunan enerji layihələrinin inkişafı perspektivləri, davamlı inkişaf üçün enerji siyasəti, elektrik enerjisi sahəsində iş birliyi, enerji səmərəliliyi və saxlanılma yerləri, həmçinin alternativ və bərpa olunan enerji mənbələri üzrə regional strategiya kimi məsələlər nəzərdən keçirilib. Qeyd edək ki, AZƏRTAC I Avrasiya konfransının media sponsorlarındandır.

# Azərbaycan dünyada tolerantlığın və multikulturalizmin paytaxtıdır



***İstənilən layihədən ənənə yaratmaq özündə ağır zəhmət və böyük məsuliyyət birləşdirən məsələdir. Hələ bu ənənə beynəlxalq miqyası əhatə edirsə və multietnik, polikonfessiyalı xarakter daşıyırsa, çətinliyi də, amma bununla yanaşı əhəmiyyəti də birəbeş artır.***

Ölkə başçısı İlham Əliyevin tövsiyəsi ilə Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi və Azərbaycan Respublikasının Prezidenti yanında Bilik Fondunun birgə təşkil etdiyi "Multikulturalizm Azərbaycanda həyat tərzi kimi: milli və dini dəyərlər" devizi ilə keçirilən III Beynəlxalq multikulturalizm məktəbi də son dönəmin əhəmiyyətli və dəyərli ənənələrindəndir.

Dövlət müşaviri Kamal Abdullayevin söylədiyi kimi, III Beynəlxalq Multikulturalizm Məktəbi üçün bu dəfə Qəbələnin əsas məkan olaraq seçilməsi, əlbəttə ki, təsadüfi verilmiş qərar deyildi. "Multikulturalizm Azərbaycanda həyat tərzi kimi: milli və dini dəyərlər" adıyla fəaliyyət göstərən növbəti yay məktəbinin təşkilində məqsəd Qəbələ və ətraf rayonlarda yaşayan multietnik və fərqli dinə etiqad edən azərbaycanlıların həyatını, məişətini, adət-ənənələrini xarici tələbələrə əyani şəkildə göstərmək idi. Qəbələnin Nic qəsəbəsi Azərbaycan multikulturalizminin parlaq simgələrindən biridir".

Nicdə xarici tələbələr üçün ən maraqlı məqamlardan biri də toy mərasimi olub. Nikahlanan gənclər Cotari kilsəsinə gələrək, burada qədim adətləri üzrə dualar oxuyublar, gələcək ailə səadəti üçün şam yandırıblar. Udi xalq rəqslərinin sədaları altında keçirilən toy-düyün, müsəlman ölkəsindəki bir xristian məbədində bağlanan mənəvi ittifaq bir ailənin qurulması və hansısa udi nəslinin davam etdirilməsi ilə yanaşı, həm də fərqli dinin, fərqli etnosun yaşadığı Nicin timsalında Azərbaycanda multikulturalizminin gələcəkdə də davam edəcəyinin göstəricisi idi.

Layihə çərçivəsində İvanovkada multikultural Azərbaycanın qoruduğu rus ruhuyla tanışlıq xusus ilə maraq doğurub. S.Mürvətqızının sözlərinə görə, kənddə gəzinti zamanı xarici tələbələr, xüsusilə də, Rusiyadan olan iştirakçılar evlərin quruluşundan başlamış, buradakı istirahət klubunun interyerinə qədər hər şeyin rus üslubunda inşa edilməsinə, İvanovkaya özünəməxsus rus mentallığının, rus ruhunun hakim olduğuna xoş heyrətlərini gizlədə bilməyiblər: "Bəlkə də eşitsək inanmazdıq, amma bura gəlib gözlərimizlə 150 ildən artıq bir zaman ərzində Azərbaycan ərazisində rusların öz milli adət-ənənələrinin, mahnılarını, həyat tərzini, məişətini qoruyub saxlamasına öz gözlərimizlə şahid olduq".

Proqram üzrə İsmayıllının daha bir bənzərsiz qəsəbəsi Lahıc III Beynəlxalq Multikulturalizm Məktəbinin iştirakçılarını yağışla, yerli əhali isə gülərüzlə qarşılayıb. III Beynəlxalq Multikulturalizm Məktəbinin iştirakçılarına Oğuzdakı "Yəhudilər məhəlləsi"nə səfər zamanı, Yuxarı və Aşağı məhəllə sinaqoqlarını ziyarət edərkən, yerli yəhudi gənclər III Beynəlxalq Multikulturalizm Məktəbinin iştirakçılarını səmimiyyətlə qarşılayıblar.

Dövlət müşaviri Kamal Abdullayev III Beynəlxalq Multikulturalizm Məktəbinin iştirakçıları ilə görüşdə Azərbaycan xalqının və dövlətinin dostlarını hər zaman yüksək qiymətləndirdiyini çıxışında qeyd edib: "Yay və qış multikulturalizm məktəblərinin keçirilməsi Prezident İlham Əliyevin ideyasıdır və dövlət başçısının arzularından biri də budur ki, Azərbaycanın gənc vətəndaşlarının xaricdə intellektual dostları artsın. Dünyanın bu ağır vaxtında, mürəkkəb bir dövrdə heç nəyə baxmadan, böyük bir entuziazmla dünyanın o biri başından, uzaq ölkələrdən sizi Azərbaycana insanlığa, gəncliyə və multikulturalizmə olan sevgi gətirib".

III Beynəlxalq Multikulturalizm Məktəbi çərçivəsində Litvadan olan tələbə Salomeya Lukaite və Yunanıstandan Dimitrios Asproulisin təşəbbüsü və digər yay məktəbi iştirakçılarının dəstəyi ilə "Azərbaycanın gənc dostları" Beynəlxalq Klubu yaradılıb. "Azərbaycanın gənc dostları" Beynəlxalq Klubun üzvləri Prezident İlham Əliyevə ünvanladıqları müraciətdə multikulturalizmin Azərbaycanda yaşadığını və bu yaşam tərzinin sülh və dostluq üçün unikal model olduğunu öz gözləriylə görmək imkanı yaratdığına görə ölkə başçısına dərin minnətdarlıqlarını ifadə ediblər: "Səfər etdiyimiz hər bir şəhərdə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin adını daşıyan mərkəzlərdə keçirdiyimiz görüşlərdə Azərbaycan xalqına bugünkü rifahı bəxş etmiş və ölkənizdəki multikultural mühitin siyasi bünövrəsini yaratmış Ulu Öndər Heydər Əliyevə xalqın dərin ehtiramının şahidi olduq. Cənab Prezident, biz bir daha əmin olduq ki, Sizin ləyaqətlə davam etdirdiyiniz bu siyasət ölkənizdə yaşayan bütün xalqları dövlətə daha möhkəm tellərlə bağlayaraq sabitliyə və inkişafa əvəzsiz töhfəsini verir. 2016-cı ili Azərbaycanda "Multikulturalizm ili" elan etməyiniz sülhə, şəfqətə və barışa dünya miqyasında bir çağırışdır. Biz bu çağırışı sevinc və məmnuniyyət hissi ilə dəstəkləməyə, onu öz ölkələrimizdəki dostlarımıza və həmvətənlərimizə çatdırmağa hazırıq. Yaratdığımız beynəlxalq klub bütün dünyada Azərbaycana rəğbət və maraq bəsləyən gəncləri öz ətrafında birləşdirəcək və onların birgə əlaqəli fəaliyyətini təşkil edəcəkdir".

III Beynəlxalq Multikulturalizm Məktəbinin iştirakçılarının təəssüratı da maraqlıdır. ABŞ jurnalisti Peter Teys yazır: "Bu, mənim Azərbaycana üçüncü səfərimdir. Müxtəlif vaxtlarda baş tutan bu səfərlər zamanı bu ölkənin tarixi, mədəniyyəti, daxili və xarici siyasəti, beynəlxalq arenada yeri ilə bağlı bilgilərimi dərinləşdirməklə yanaşı, həm də Azərbaycan multikulturalizminin mahiyyətini tamamilə anlamaq üçün kifayət qədər zəngin təəssüratlar əldə etmişəm. III Beynəlxalq Multikulturalizm Məktəbində iştirakımdan sonra indi tam əminliklə söyləyə bilərəm: "Azərbaycan dünyada tolerantlığın və multikulturalizmin paytaxtıdır".

Çinli iştirakçı Yu Vanq isə Nic qəsəbəsindəki Alban-Udi xristian kilsəsini görəndə çox sevindi: "Mən musiqiçi olduğum üçün kilsədə səslənən arqan musiqisi diqqətimi cəlb etdi. Ümumiyyətlə, Azərbaycan musiqisi mənim maraq dairəmdədir. Burada olduğum günlərdə Azərbaycan bəstəkarlarının musiqilərini dinlədim. Qəbələdə təşkil olunan konsertdə Azərbaycanın xalq mahnıları mənə xoş anlar yaşatdı".

Rusiyalı Yevgeniya Şilyayeva, yəmənli Hafsa Hassan, indoneziyalı İmas Choirun Nisa Fujiati və başqaları zəngin təəssüratla ölkəmizdən ayrılıblar. Qədim Qəbələnin tarixi məkanları, gözəl təbiəti və müasir istirahət mərkəzləri onları heyran edib. Yay məktəbində iştiraka görə özünü xoşbəxt sanıb.

S.Mürvətqızının sözlərinə görə, "dünyanın hər baxımdan qarmaqarışıq indiki vaxtında, sadəcə, müsəlman bir ölkənin xəritəsində mövcud olan udi xalqının kompakt yaşadığı bir qəsəbədə - xristianlığın ən qədim kilsələrinin birinin həyətində Azərbaycan "Yallı"sı 20-yə yaxın xalqın nümayəndəsinin əllərini və ürəklərini birləşdirmişdi. Azərbaycan multikulturallığını bütün rəngarəngliyi ilə, bundan daha dolğun ifadə edəcək, belə bir mənzərəyə sözün hər iki mənasında tərif lazım deyil. Çünki bəzi mətləblər tərifə gəlmir, sadəcə yaşanır - Azərbaycan multikulturalizmi kimi.

**NƏZAKƏT**

# Aprel döyüşlərindən sonra azad olunan ərazilərdə müdafiənin ön xəttinin möhkəmləndirilməsi müzakirə edilib

***Avqustun 30-da Müdafiə Nazirliyində Silahlı Qüvvələrdə döyüş hazırlığının nəticələrinə həsr olunmuş kollegiya iclası keçirilib. Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, iclasda müdafiə nazirinin müavinləri, Silahlı Qüvvələrin növləri və qoşun qismləri komandanları, nazirliyin baş idarə, idarə və xidmət rəisləri, birlik və birləşmə komandirləri, qərargah rəisləri və digər məsul zabitlər iştirak ediblər.***

Müşavirədə döyüş hazırlığı və nizam-intizamın vəziyyəti, həyata keçirilən fəaliyyətlər, problemlər və onların həlli yolları, əldə olunan nailiyyətlər, əsas istiqamətlər üzrə yerinə yetirilən tapşırıqlarla bağlı nazir müavinləri və birlik komandirlərinin məruzələri dinlənilib, qısa və uzun müddətli perspektivlər barədə ətraflı fikir mübadiləsi aparılıb. Müdafiə naziri, general-polkovnik Zakir Həsənov Ali Baş Komandan İlham Əliyevin Silahlı Qüvvələrə göstərdiyi





diqqət və qayğını xüsusi qeyd edərək, xalqımızın və ölkə rəhbərliyinin ordumuzun fəaliyyətinə verdiyi yüksək qiymətdən danışıb.

Nazir cari ilin aprel döyüşlərindən sonra işğaldan azad olunmuş ərazilərdə müdafiənin ön xəttinin möhkəmləndirilməsi, hərbi hissələrin müasir silah-sursat və zirehli texnikalarla təchiz edilməsi, şəxsi heyətin döyüşə hazırlığının səviyyəsi, hərbi qulluqçuların mənəvi-psixoloji vəziyyəti və nizam-intizamın gücləndirilməsi, eləcə də onların sosial-məişət şəraitlərinin daha da yaxşılaşdırılması istiqamətində müvafiq tapşırıqlar verilib.

Sonda kollegiya iclasında irəli sürülən təkliflər müzakirə olunaraq qərar layihəsi qəbul edilib.

# “The Jewish Journal” nəşrində Azərbaycanda qadınların imkanları haqqında məqalə dərc edilib

***ABŞ-da çıxan “The Jewish Journal” nəşrində Xocalı soyqırımının şahidi, həmin qanlı qırğından möcüzə sayəsində sağ çıxmış Dürdanə Ağayevanın “Məktəbə qayıdış və geniş açıq dünya ilə görüş” sərlövhəli məqaləsi dərc edilib. Müəllif yaxınlaşan yeni dərs ili, qızının məktəbdə məşğələlərə hazırlaşması və qadın kimi Azərbaycanda onun üçün əlverişli olan geniş imkanlar barədə söhbət açır.***




D.Ağayeva yazır: “Mənim ölkəm Azərbaycan əhalisinin əksəriyyəti müsəlmanlar olan dünyəvi demokratik dövlətdir. Bizim hökumət çoxkonfessiyalığı dəstəkləyir və təşviq edir, bütün dinlərə hörmətlə yanaşır”. Müəllif qeyd edir ki, Azərbaycanda yəhudi və xristian qadınlara da təhsil almaq hüququ və müvafiq imkanlar verilib. Halbuki dünyanın digər müsəlman cəmiyyətlərində belə imkanlar heç də həmişə əlverişli deyil. Müəllif vurğulayır ki, Azərbaycanda elmlər doktorlarının 50 faizi qadınlardır. Azərbaycan qadınlarına seçki hüququ hələ 1918-ci ildə, yəni ABŞ-da qadınların bu cür hüquqlar almasından bir il əvvəl verilib. D.Ağayeva qızının yaxşı təhsil almaq istəyini və arzusunu dəstəkləyərək, ona Azərbaycanın fərqlənmiş qadınlarının uğurları barədə danışır. Məsələn, Leyla Məmmədbəyova ilk azərbaycanlı qadın təyyarəçi idi (1931-ci il). O, həmçinin Qafqazda, Cənubi Avropada və Yaxın Şərqdə ilk qadın təyyarəçi olub. Altı uşaq böyütmüş Leyla Məmmədbəyova çoxsaylı paraşütçü və pilot hazırlayıb, Mərkəzi Asiya ilə Cənubi Avropa arasında uçuşu həyata keçirmiş ilk qadın təyyarəçidir.

D.Ağayeva Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın ictimai və siyasi xadim, UNESCO və ISESCO-nun xoşməramlı səfiri kimi böyük nailiyyətləri haqqında yazır. O, həmçinin Azərbaycanın digər qadınlarının - Milli Məclisin sədr müavini Bahar Muradovanın, parlamentin deputatları Qənirə Paşayevanın və Sevinc Fətəliyevanın, Ali Məhkəmənin hakimi Tatyana Qoldmanın da uğurlarını xatırladır. Müəllif sonda yazır ki, Azərbaycan qadını hansı karyera yolunu seçməsindən asılı olmayaraq, ölkənin inkişafına öz müsbət töhfəsini verə biləcək. Çünki o, həyatın bütün sahələrində uğurlar qazanan kişilərin və qadınların bərabərliyi prinsiplərinə əsaslanan ölkədə yaşayır.

***Yusif Babanlı***
***AZƏRTAC-ın xüsusi müxbiri***
***Vaşinqton***

# Azərbaycan Xarici İşlər Nazirliyinin bəyanatı

***Kütləvi informasiya vasitələrində verilən məlumata görə Ermənistan tərəfindən Azərbaycan Respublikasının işğal olunmuş ərazilərində yaradılmış qondarma rejimin “müstəqilliyinin 25 illiyi” bəhanəsi ilə sentyabrın 2-3-də Yerevanda konfransın keçirilməsi və konfrans iştirakçılarının işğal olunmuş ərazilərə səyahətinin təşkili planlaşdırılır. Həmçinin sentyabrın 15-18-də Xankəndidə beynəlxalq gənclər konfransının təşkil edilməsi və digər bu kimi təxribatçı tədbirlərin keçirilməsi nəzərdə tutulur.***



Ermənistan Azərbaycana qarşı müharibəyə başlayıb, gücdən istifadə edərək Azərbaycan ərazilərinin 20 faizini işğal edib və 1 milyona yaxın azərbaycanlını etnik təmizləməyə məruz qoyub, işğal olunmuş ərazilərdə çoxsaylı hərbi və bəşəriyyət əleyhinə cinayətlər, soyqırımı əməlləri törədib. Azərbaycan Respublikasının işğal olunmuş ərazilərində yaradılmış qondarma rejim Ermənistanın Azərbaycana qarşı təcavüz və işğalının nəticəsidir. Avropa İnsan Hüquqları Məhkəməsinin 16 iyun 2015-ci il tarixli “Çıraqov və digərləri Ermənistana qarşı” işi üzrə çıxardığı qərarda da təsdiq edildiyi kimi, bu rejim Ermənistanın idarəçiliyi və nəzarəti altındadır və Ermənistanın hərbi, siyasi, maliyyə və digər dəstəyi sayəsində öz mövcudluğunu davam etdirir.

Beynəlxalq ictimaiyyət qəti şəkildə Ermənistan tərəfindən Azərbaycana qarşı hərbi gücdən istifadəni və onun torpaqlarının işğalının nəticələrini davamlı olaraq qınayıb. 1993-cü ildə BMT Təhlükəsizlik Şurası 822, 853, 874 və 884 saylı qətnamələr qəbul edib, Azərbaycana qarşı gücdən istifadəni və onun ərazilərinin işğalını pisləyib, eyni zamanda, Azərbaycanın suverenliyi və ərazi bütövlüyünü, o cümlədən beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığını bir daha təsbit edib. Bu qətnamələrdə Təhlükəsizlik Şurası Dağlıq Qarabağı Azərbaycanın tərkib hissəsi kimi təsdiq edib və işğalçı qüvvələrin işğal olunmuş bütün Azərbaycan ərazilərindən dərhal, tam və qeyd-şərtsiz çıxmasını tələb edib. Digər beynəlxalq təşkilatlar da buna oxşar sənədlər qəbul edib.

Münaqişənin həlli istiqamətində konstruktiv addımlar atmaq əvəzinə qondarma rejimin “müstəqilliyinin 25 illiyi” bəhanəsi ilə Ermənistanın təşkil etməyə çalışdığı növbəti təxribatçı tədbirlər prezidentlərin Vyana və Sankt-Peterburq görüşlərinin ruhuna zidd olaraq, münaqişənin həlli üzrə ATƏT Minsk qrupunun həmsədr dövlətlərinin vasitəçiliyi ilə aparılan danışıqlar prosesinə xələl gətirir, regionda davamlı sülhün təmin olunması istiqamətində atılan səylərə fayda vermir. Bu tədbirlər Azərbaycanın işğal edilmiş ərazilərində yaradılmış qondarma rejimin təbliğinə və məqsədyönlü təxribat cəhdlərinə xidmət edir. Qondarma rejimin “müstəqilliyinin 25 illiyi” adı altında keçirilən bu tədbirlərə dəvət edilmiş şəxsləri beynəlxalq hüququn norma və prinsiplərinə hörmət etməyə, təxribat məqsədlərinə xidmət edən bu kimi tədbirlərdən kənar durmağa və işğal edilmiş Azərbaycan ərazilərində səfərlərdə iştirak etməkdən çəkinməyə çağırırıq.

İşğal olunmuş Azərbaycan ərazilərinə səfər edənlər Azərbaycanın qanunlarını pozur və həmin şəxslərə münasibətdə onların ölkəmizə gələcək səfərlərinə qadağa qoymaq da daxil olmaqla, Azərbaycan Hökuməti tərəfindən müvafiq tədbirlər görüləcək.

# Azərbaycan-Yaponiya əlaqələri daha da inkişaf edir

Avqustun 30-da Yaponiyanın Xarici İşlər Nazirliyinin parlamentar vitse-naziri Motome Takisavanın başçılıq etdiyi nümayəndə heyəti Milli Məclisdə olub. AZƏRTAC xəbər verir ki, Azərbaycan-Yaponiya parlamentlərarası dostluq qrupunun üzvləri ilə görüşdə ölkələrimiz arasındakı siyasi, iqtisadi əlaqələrin inkişafından məmnunluq ifadə edilib. Dostluq qrupunun rəhbəri Muxtar Babayev qarşılıqlı səfərlərin, keçirilən görüşlərin Yaponiya-Azərbaycan münasibətlərinin inkişafına təkan verəcəyini bildirib. O qeyd edib ki, son illər ərzində Azərbaycan ilə Yaponiya arasında ikitərəfli münasibətlər daha da dərinləşib.



Müxtəlif istiqamətlərdə, xüsusilə iqtisadiyyat, sənaye sahələrində əməkdaşlıq inkişaf edib. Yaponiya texnologiyalarının Azərbaycanda tətbiqi geniş vüsət alıb. Ölkəmizdə energetika sahəsində yapon texnologiyalarının tətbiqi 60 faiz təşkil edir.

Azərbaycanın hazırda regionun ən inkişaf etmiş ölkəsi olduğunu deyən M.Babayev qeyd edib ki, respublikamızda iqtisadiyyatın şaxələndirilməsi ilə yanaşı, yeni istehsalat sahələri də yaradılır. Hazırda Azərbaycanda qeyri-neft sektorunun inkişafı üçün mühüm tədbirlər görülür. Bu tədbirlər həm dövlət, həm də özəl biznes tərəfindən həyata keçirilir.

Motome Takisava ölkələrimiz arasında geniş spektrdə əlaqələrin inkişaf etdirilməsində qarşılıqlı marağın mövcud olduğunu vurğulayıb. O, qarşılıqlı hörmətə, etibara əsaslanan Azərbaycan-Yaponiya əlaqələrinin bundan sonra da möhkəmlənəcəyinə ümidvar olduğunu bildirib. Vitse-nazir qeyd edib ki, Azərbaycan çox zəngin təbii ehtiyatlara malik olan ölkədir.

Görüşdə çıxış edən Milli Məclisin digər deputatları Yaponiya-Azərbaycan dostluğunun önəmindən danışıblar. Onlar bu görüşün Azərbaycan-Yaponiya münasibətlərinin daha da inkişafına töhfə verəcəyini söyləyiblər.





# Referendum üzrə "Yeni Azərbaycan" Təşviqat Qrupunun Qaradağ rayon şöbəsinin yığıncağı keçirilib

***Dünən referendum üzrə "Yeni Azərbaycan" Təşviqat Qrupunun Qaradağ rayon şöbəsinin yığıncağı keçirilib. Tədbirdə çıxış edən Yeni Azərbaycan Partiyası (YAP) Qaradağ rayon təşkilatının sədri, Milli Məclisin deputatı Aydın Hüseynov referendum üzrə "Yeni Azərbaycan" Təşviqat Qrupunun Qaradağ rayon şöbəsinin fəaliyyətinin birinci mərhələsinin yekunları haqqında məlumat verib, həmçinin, fəaliyyət proqramına uyğun olaraq, referendum keçirilməsilə əlaqədar qarşıda duran vəzifələr haqqında danışıb.***

Yığıncaqda bildirilib ki, referendumla əlaqədar rayon təşkilatının aparatında 19 nəfərdən ibarət qərargah yaradılıb. Qərargahda fəaliyyət göstərəcək üzvlər və təşviqat kampaniyasında iştirak edəcək YAP fəalları müəyyənləşdirilib, onlar arasında vəzifə bölgüsü aparılıb. Həmçinin, seçici siyahılarının dəqiqləşdirilməsi ilə məşğul olan şəxslər müəyyənləşdirilib, onlar arasında konkret iş bölgüsü aparılıb. Ərazinin sosial və əhalinin xüsusiyyətləri öyrənilir, qəsəbələrdə olan dini icmalar, təşviqat kampaniyasında iştirak edəcək ağsaqqallar, ziyalılar müəyyənləşdirilib. Dairə və məntəqə-seçki komissiyalarında Yeni Azərbaycan Partiyasını təmsil edən üzvlərin siyahısı hazırlanıb və onlarla treninqlər keçirilir. Bundan başqa, dairə və məntəqə-seçki komissiyalarında fəaliyyət göstərəcək məşvərətçi səs hüquqlu üzvlər, eyni zamanda, müşahidə aparacaq şəxslər müəyyən edilib. Rayon ərazisində təbliğat materiallarının asılması, yapışdırılması, yerləşdirilməsi və seçki məntəqələri ərazisinə çatdırılması, paylanması işinin aparılması üçün gənclərdən ibarət mobil qrup yaradılıb. Aydın Hüseynov kampaniyanın uğurla başa çatdırılması və referendumda yüksək fəallığın təmin olunması istiqamətində görüləcək digər işlərlə bağlı yığıncaq iştirakçılarına tövsiyələrini verib.

Daha sonra tədbirdə çıxış edən Ə.Əmirov adına NQÇ-nin rəisi Ramin Quliyev, YAP Qaradağ rayon təşkilatı Gənclər Birliyinin sədri Ramiz Yusubov, YAP Qaradağ rayon təşkilatı aparatının təlimatçısı Hacı İbrahimov, Cavanşir Əliyev və digərləri görülən işlərlə bağlı fikirlərini bildirib, Qaradağ rayonunda da ümumxalq səsverməsinin yüksək səviyyədə həyata keçiriləcəyinə inamlarını ifadə ediblər.

# ARDNF 29 banka 50 mln. dollar satıb



Dünən Azərbaycan Respublikası Dövlət Neft Fondu (ARDNF) tərəfindən 50 mln. ABŞ dolları məbləğində vəsait hərraca çıxarılıb. Fonddan SİA-ya verilən məlumata görə, hərracda 50 mln. dollar 29 banka satılıb. İl ərzində ARDNF tərəfindən hərraclar vasitəsilə valyuta satışı davam etdiriləcək.

# Xətaidə bina yanğını necə baş verib?

## *Şahidlər səbəblər barədə danışır*

***Dünən Bakı Ağır Cinayətlərə Dair Məhkəmədə ötən il Xətai rayonu, Zığ yolu küçəsi 16 ünvanında yerləşən çoxmərtəbəli yaşayış binasında baş vermiş yanğınla bağlı hakim Eldar İsmayılovun sədrliyi ilə məhkəmə iclası keçirilib. SİA xəbər verir ki, öncə hakim məhkəmə iclasında 9 nəfər zərərçəkmişin iştirak etdiyini bildirib. Zərərşəkmişlər hüquqları barədə məlumatlandırılıblar. Sonra məhkəmə iclasında zərərçəkmiş vətəndaşların çıxışları dinlənilib.***



Zərərçəkmiş Zərifə Ağamalıyeva çıxış edərək təqsirləndirilən şəxsləri tanımadığını bildirib və yanğın barədə deyib ki, hadisə baş verən an onun mənzili yanmaqla yanaşı, evində olan məişət və s. əşyaları da istifadə olunmaz hala düşüb və nəticədə xeyli maddi ziyan dəyib. Zərərçəkmiş sonradan mənzilinin təmir olunduğunu və kompensasiya ödənildiyini bildirib. Zərərçəkmiş Yeganə Səmədova da bildirib ki, bunanın yanmasını evdə ikən öyrəniblər: "Mənzil tam yansa da sonradan təmin olundu. Kompensasiyamızı da ödədilər. Heç bir şikayətim yoxdur".

Zərərçəkmiş Əminə Ənsərova da təqsirləndirilən şəxsləri tanımadığını deyərək, bildirib ki, əsas günahkarlar yanar materialları istehsal edərək, onu dövlətə satanlardır: "Tərkibi sıxılmış qaz olan bu materialların istehsalçıları əsas günahkarlardırlar. Məhz onların cinayət məsuliyyətinə cəlb olunmalıdırlar. Yanğın zamanı güclü külək əsirdi. Deyə bilmərəm yanğın hansı səbəbdən baş verib. Ancaq məsuliyyətsizlik də olub. Şükür Allaha ki, yanğın nəticəsində ölüm hadisəsi olmayıb. Dövlətimiz və hökumətimiz sağ olsun ki, mənzillərimizi təmir etdi, kompensasiyalarımız da ödəndi. Biz bilirik ki, dövlət başçımız bu məsələni şəxsi nəzarətində saxlayır". Zərərçəkmişlər Əhməd Sarıyev və Yaşar Mehrəliyev isə bildirdilər ki, heç bir şikayətləri yoxdur və təqdirləndirilən şəxsləri tanımırlar.

Şahhüseyn Kazımov adlı zərərçəkmiş isə çıxışında bildirdi ki, təqsirləndirilən şəxsləri tanımır. Onun dediyinə görə, yanğından sonra mənzili təmir olunub və təzminat da ödənilib. O, özünün də ali təhsilli inşaatçı olduğunu və binanın üz örtüyünün quraşdırılması zamanı materiallardan düzgün istifadə olunmadığını, texniki-təhlükəsizlik qaydalarına riayət olunmadığını deyib: "Qonşular da təsdiq edə bilər ki, təmir zamanı binanın sol küncündə üzlük materiallardan qalan artıq hissələr üst-üstə yığılmışdı. Onun altından isə açıq projektor xətti keçirdi. Ehtimal edirəm ki, həmin xətt açıq olub və yanğına səbəb olub. Çünki həmin gün güclü külək də əsirdi".

Zərərçəkmiş Zöhrab Muxtarlı məhkəmə iclasında iştirak etmədiyindən onu nümayəndəsi qismində bacısı Sitarə Muxtarlı əvəz edib. O, qeyd edib ki, yanğın zamanı hər kəs evdə olub və binanın üz örtüyü anidən alışıb: "10-15 dəqiqəyə binanın bir hissəsinin üz ötrükləri tamamilə yanmağa başlayıb. Yanğından sonra mənzil təmir edilib və kompensasiya da ödənilib. Heç bir şikayətim yoxdur".

Zərərçəkmiş Vahabova Xədicə isə hakimə bildirib ki, ona vurulan maddi ziyan tam ödənilməyib: "Mənim mənzilim binanın künc hissəsində olduğuna görə yalnız mətbəxim yanıb". O, həmçinin qeyd edib ki, mənzil onun adına olsa da həmin mənzildə yaşamır.

Zərərçəkmişlər Hümmətov Ziyad, Qasımov Məhəbbət, eləcə də Səfərova Nəzakətin nümayəndəsi qismində məhkəmə iclasına qatılmış anası Abbasova Aidə də təqsirləndirilən şəxslərlə heç bir tanışlıqları olmadığını deyərək, mənzillərinin dövlət hesabına təmir olunduğunu, təzminatların isə ödənildiyini bildiriblər. Onlar heç bir şikayətlərinin olmadığını vurğulayıblar.

Qeyd edək ki, hadisə ötən il aprelin 10-da Bakı şəhəri, Xətai rayonu, Zığ yolu küçəsi 16 saylı ünvanda baş verib. Həmin ünvanda "TNH" şirkəti tərəfindən fasadında "poliuretan" materialla üzləmə işləri aparılan doqquzmərtəbəli yaşayış binasında ağır nəticələrə səbəb olan yanğın qeydə alınıb. Faktı üzrə Baş Prokurorluğun Ağır Cinayətlərə Dair İşlər üzrə İstintaq İdarəsində Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işi başlanıb. Cinayət işi üzrə aparılan baxış, axtarış, götürmə istintaq hərəkətləri ilə "TNH" şirkətinin fəaliyyətinə, istehsal etdiyi "poliuretan" məmulatının keyfiyyət və istehsal texnologiyasına dair zəruri materiallar, həmçinin iş üçün əhəmiyyət kəsb edən digər sənədlər müvafiq qaydada maddi sübut kimi götürülüb. Ağırlaşdırıcı hallarda vəzifə səlahiyyətlərindən sui-istifadə etməklə yanğın təhlükəsizliyi qaydalarını kobud surətdə pozaraq Xətai rayonu ərazisində yerləşən - qeyd edilən yaşayış binasına və bina sakinlərinə külli miqdarda maddi ziyan vurulmasına səbəb olan əməllərinə görə "TNH" şirkətinin fəaliyyətinə və görülən işlərə faktiki rəhbərliyi həyata keçirən Fərid Sadıqov, şirkətin direktoru Zaur Əşrəfov, şirkət direktorunun tikinti işləri üzrə müavini Nüsrət Muxtarov Cinayət Məcəlləsinin 225.2-ci (ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin ölümünə və digər ağır nəticələrə səbəb olan yanğın təhlükəsizliyi qaydalarını pozma) və 308.2-ci (vəzifə səlahiyyətlərindən sui-istifadə ağır nəticələrə səbəb olduqda) maddələri ilə təqsirləndirilən şəxs qismində cəlb edilərək barələrində Nəsimi Rayon Məhkəməsinin qərarları ilə 4 ay müddətinə həbs-qətimkan tədbiri seçilib. Sonradan həbs-qətimkan tədbirinin müddəti artırılıb. Hakim Eldar İsmayılov zərərçəkmişlərin ifadələrini dinlədikdən sonra növbəti məhkəmə iclasının vaxtını müəyyən edib. Növbəti iclas sentyabrın 6 səhər saat 10:30-a təyin edilib.

**RÖVŞƏN NURƏDDİNOĞLU**



## Əli Kərimli Rusiyaya "Milli Şura"nın hesabını ödəyir?

RÖVŞƏN
rovsen.rasulov@mail.ru

***Hələ 2013-cü ilin prezident seçkiləri öncəsi Azərbaycan Xalq Cəbhəsi Partiyası və dağıdıcı müxalifətin müxtəlif qrupları "Milli Şura" adlı qurum yaratdılar. Qurumun Rusiyanın müəyyən qaranlıq siyasi dairələri tərəfindən yaradılması barədə kifayət qədər faktlar mövcuddur. Məhz həmin ərəfələrdə "Milli Şura"nın namizədi Cəmil Həsənli gah bu, gah da digər şəkildə mediaya çıxıb, guya həyatına qəsd olunacağını iddia edir, ona əmr verən ağalarının bütün tövsiyə və tapşırıqlarına mujiksayağı "budet sdelano" (yerinə yetiriləcək-R.) deyərək, min bir oyunlardan çıxırdı. Ancaq alınmadı. Çünki Rusiya-Azərbaycan münasibətləri fonunda Şimal qonşumuzun qaranlıq siyasi dairələrinin bundan artıq əl-qol açmalarına heç Rusiya hakimiyyəti də razı olmazdı. Nəticədə, "Milli Şura" ciddi parçalanmalar yaşadı və hazırkı məqamda da biz bunun şahidi olmaqdayıq.***

Lakin məsələnin əsas tərəfində C.Həsənli deyil, onu siyasi kuklaya çevirmiş Ə.Kərimli amili dayanıbdır desək, çox yəqin ki, yanılmarıq. Yəni fakt budur ki, Ə.Kərimli zaman-zaman demək olar ki, ona yaxşı ağalıq edən maraqlı dairələrə canla-başla nökərçilik edib. Bu nökərçilikdə isə yanında Q.Zahid, C.Həsənli, N.Ədilov, S.Həzi kimiləri dayanırdı. Ancaq biz bunu da bir kənara qoyub, keçirik əsas mətləbə...

Demək, Ə.Kərimlinin son vaxtlar "FETÖ" məsələsində ittiham olunması arxasında üzə çıxan çoxsaylı faktlar barədə məlumatlar Rusiyanın telekanallarına qədər gedib çıxıb. "Vesti" kanalında Ə.Kərimlinin ifşası ətrafında xəbər bülleteni efirə gedib. Orada bütün faktlar yerli-yerində Rusiya ictimaiyyətinin diqqətinə çatdırılıb. Nəticədə, Ə.Kərimli bu hadisədən pəjmürdə olub və dərhal cumub feysbuk klaviaturasına. Bu adam elə bilir ki, Rusiya hakimiyyətinin hədəfindərir. Ancaq unudur ki, Rusiya mediası "FETÖ" planının Azərbaycanda baş tutmaması faktlarından bəhs edərkən, burada Ə.Kərimlinin rolundan da bəhs edib. Binəva AXCP sədri də elə sanıb ki, Rusiya boyda böyük məmləkət işini-gücünü atıb, bu siyasi dılğırı hədəfə alıb. Belə yerdə deyiblər e, gorun çatlasın Lenin..!

Ancaq Kərimli bir amili, deyəsən, unudub. Unudub ki, "Milli Şura"nı yaradarkən, onun özü Rusiyanın qaranlıq siyasi dairələrinin ayaqları altına atılmışdı. Sadəcə, ona verilən əmr və tapşırıqların yerinə yetirə bilmədiyinə görə, çox yəqin ki, "Milyarderlər İttifaqı"ndakı köhnə dostları onu Rusiyanın telekanalları vasitəsilə "vurur". Yəni necə deyərlər, dərsini verir. Bu da elə bilir ki, rus buna ilişir. Fəqət, rusun başqa işləri var, ay Ə.Kərimli! İndi Rusiya Türkiyə kimi böyük dövlətlə əməkdaşlığın yeni formatlarını qurur və sənin kimi siyasi böcəklər, ümumiyyətlə, rusun marağında deyil.

## Küllü miqdarda markasız siqaret aşkar edildi

Hava Nəqliyyatında Baş Gömrük İdarəsinin Gömrük hüquqpozmalarına qarşı mübarizə şöbəsinə daxil olmuş əməliyyat məlumatı əsasında, Naxçıvan-Bakı aviareysi ilə gələn Azərbaycan vətəndaşı saxlanılaraq onun əl yükünə baxış keçirilib. Dövlət Gömrük Komitəsinin mətbuat xidmətindən SİA-ya verilən məlumata görə, malların yoxlanılması zamanı vətəndaşa məxsus dörd ədəd sellofan paketdən Azərbaycanın aksiz markası ilə markalanmayan 10.000 ədəd "Kent Nanotek" və 4000 ədəd "Marlboro Edge" markalı siqaretlər aşkar olunub. Faktla bağlı araşdırma aparılır.

# Müstəqilliyin dövləti və mənəvi uğurları: kölgə salmaq cəhdlərinə etiraz

***İndi dünyanın hər bir yerində intensiv informasiya mübarizəsi gedir. Müəyyən dairələr rəqibi gözdən salmaq üçün qəsdən ölkələrin mənfi obrazını yaradırlar. Bunun üçün KİV-in imkanlarından geniş istifadə olunur. Müxtəlif mövzular altında yalanı həqiqət kimi insanların şüuruna yeritməyə çalışılır. Bu kontekstdə Zərdüşt Əlizadənin "EurAsia Daily" elektron nəşrinə verdiyi bir müsahibə diqqətimizi çəkdi. Burada Azərbaycanın müstəqillik illərində əldə etdiyi nailiyyətlər təhrif olunur, cəmiyyətin heç nə qazanmadığı iddia edilir.***

Bu yaxınlarda Zərdüşt Əlizadə "EurAsia Daily" agentliyinə müsahibə verib (bax: Zarduşt Alizade: Posle kraxa SSSR azerbaydjanü poterəli vse / "eadaily.com", 12 avqust 2016). Müsahibəni filosof-jurnalist Artur Priymak götürüb. O, həm də din fəlsəfəsi, tarix, siyasətşünaslıq, millətlərarası münasibətlərlə maraqlanır. Çexiyada anadan olub, bir müddət Kazan şəhərində yaşayıb, son illər dilər" kimi qeyri-müəyyən və əsassız fikirlər söyləyir. Onun məntiqinə görə, keçən əsrin 90-cı illərində Azərbaycanda baş verənlərin arxasında konkret bir şəxs dayanırmış və tarixin obyektiv təkamülünün bunlara az aidiyyəti varmış. Konkret olaraq Z.Əlizadə ölkədəki prosesləri Ulu Öndər Heydər Əliyevin idarə etdiyini söyləyir. Bu zaman o, Ayaz Mütəllibovu pozitiv ampluada təqdim edir.



Bu, əsassız, yanlış və çox zərərli fikirlərdir. Reallıqda belə hərəkətlər düşmən dəyirmanına su tökməyə xidmət edir. Kimliyindən, cəmiyyətdə hansı vəzifə və mövqe tutmasından asılı olmayaraq, hər bir vətəndaş fikir bildirməzdən əvvəl öz vicdanını və mənsub olduğu xalqın tarixini xatırlamalıdır. Heç olmasa, real faktları təhrif etməməli, həqiqəti söyləməlidir. Bizlər Azərbaycan dövlətçiliyinin fədailəriyik, onun uğuruna sevinir, acılarını içimizdə daşıyırıq. Lakin heç zaman düşmənə imkan verməməliyik. O cümlədən fərdi hərəkətləri mizlə!

### Tarixin səsi: reallıqla vicdanın kəsişdiyi sahədə

Cənubi Qafqaz tarixinin mürəkkəb dönəmlərindən birini yaşayır. Dünyanın müxtəlif bölgələrində meydana çıxmış ziddiyyətli proseslərin təsirini öz üzərində hiss edir. Fərqli ideoloji və siyasi konseptlərin ictimai şüura sırınması cəhdləri müşahidə edilir. Bu sırada radikal və məzhəbçi dini-ideoloji mövqe ilə yanaşı, milli inkişaf xəttindən yayındırmağa çalışan və "sivil ideoloji mövqe" kimi təqdim edilən fikirlər də özünü göstərmiş olur. Bu zaman, adətən, yaxın tarixin özünəməxsus təftişinə baş vurulur. Burada mənfi rolu olan elementlər insanların şüuruna təhrif olunmuş formada, absurd məntiqi çərçivədə müsbət məzmunda yeridilməyə çalışılır. Təəssüf ki, bu əlaməti Azərbaycandakı bir sıra özlərini ziyalı adlandıranların söylədiklərində də görmək olur.

isə Moskvada məskunlaşıb. Dağıstanda, Çeçenistanda, Yakutiyada, Tatarıstanda işləyib. 2013-cü ildə Kazanın "Əl-İxlas" məscidi ilə bağlı silsilə yazılar dərc edib.

Müsahibədə əsas mövzu Azərbaycanın keçən əsrin 80-ci illərinin sonundan başlayaraq bu günə qədərki siyasi mənzərəsi ilə bağlı olub. Z.Əlizadənin Xalq Cəbhəsi və burada aparıcı rol oynayan keçmiş silahdaşları haqqında dediklərini özünün vicdanına buraxırıq. Bizi maraqlandıran müstəqillik dövrünün xarakteristikasında bir sıra məqamların təhlilidir. Özünü Azərbaycanın vətənpərvər ziyalısı kimi göstərməyə çalışan birisi, mütləq milli dövlətçilik quruculuğunun uğurlarından Vigen Akopyan adlı ermeninin baş redaktoru olduğu bir nəşrə danışmalı idi. Hər bir ideoloji çaları bir kənara qoyub həqiqət naminə bunu vurğulamalı idi.

Əvəzində isə Z.Əlizadə "azərbaycanlılar SSRİ-nin süqutundan sonra hər şeyi itir-

Reallıqda nələr baş vermişdi? Əvvəlcə A.Mütəllibov, sonra isə AXC rəhbərliyi Azərbaycan dövlətçiliyini məhv olma astanasına gətirmişdilər. Ermənistanın kənardan aldığı dəstəklə cəbhə boyu ərazilərimizdə irəliləməsinin qarşısını ala bilmirdilər. Eyni zamanda, ölkə daxilində bəzi dairələrin dəstəyi ilə separatçı əhval-ruhiyyə güclənirdi.

Elə vəziyyət yaranmışdı ki, Azərbaycan cəmiyyət olaraq seçim etməli idi: ya parçalanmış və düşmən tapdağında qalan ölkə, ya da milli dövlətçilik kursuna üstünlük verən bütöv Azərbaycan. Heydər Əliyev ölkəni məhz ikinci yola çıxara bilən siyasətçi, şəxsiyyət, lider və vətənpərvər oldu. Qalanı təfərrüatdır. Çünki söhbət millətin, dövlətin taleyindən gedirsə, burada bu və ya digər şəxsin, o cümlədən Əlizadələrin itirdiyi, yaxud qazandığı önəm daşımır. Heydər Əliyev bunun nümunəsini göstərdi: Gəncəyə üsyançılarla danışı-

# Müstəqilliyin dövləti və mənəvi uğurları:
# kölgə salmaq cəhdlərinə etiraz

ğa Ümummilli Lider getdi, ölkəyə başçı seçiləndən sonra sui-qəsdlərin qarşısında qətiyyətlə dayandı, bütün maneələrə baxmayaraq "Əsrin müqaviləsi"ni Heydər Əliyev imzaladı! Z.Əlizadənin danışdıqları məhdud təfəkkürünün məhsuludur, bunlar isə real faktlardır!

Sadə insanın belə verəbiləcəyi sual yaranır: əgər sizlər bu dərəcədə ağıllı idinizsə, nəyə görə Azərbaycanı böhrana salırdınız, yaxud böhrandan çıxara bilmədiniz? İndi bir regiona xidmət etdiyini söylədiyiniz Surət Hüseynovu "əsl Bakı ziyalılığı" ilə nəyə görə məğlub edə bilmədiniz? Deməli, onda da real düşünüb hərəkət edə bilmirdiniz, indi də baş verən prosesləri obyektiv təhlil etmək iqtidarında deyilsiniz və ya bunu istəmirsiniz!

### Uğurlu Azərbaycan dövlətçiliyi: Qurucuya hörmət, cəmiyyətə dəstək!

Gerçəklik budur ki, Sovet İttifaqı dağıldıqdan sonra azərbaycanlılar 2 ildə nələrisə itirdilər, ancaq 1993-cü ildən etibarən hər şeyi nəinki qaytardılar, hətta yeni yüksək keyfiyyətlər də əldə etdilər. Hansıları? Bir-bir ifadə edək. Hər şeydən əvvəl müstəqil dövlət qurmağın şərəfini və qürurunu yaşamaqdayıq! Keçən 23 il müddətində Azərbaycan adlı göz bəbəyi dövlətimizin BMT Təhlükəsizlik Şurasından səsi gəldi, iqtisadi infrastrukturu tamamilə yenidən qurdu (hansını ki, Ermənistan və Gürcüstan hətta normal demontaj belə edə bilməyib), müasir tələblərə cavab verən azərbaycançılıq ideologiyasına yiyələndi, öz tarixinə, milli-mədəni keçmişinə müstəqil dövlətçilik mövqeyindən yanaşmağı bacardı.

Davam edək. Azərbaycana rəhbərliyi müddətində Heydər Əliyev ölkəni regional liderlik səviyyəsinə yüksəltdi, İlham Əliyev isə onu daha da möhkəmləndirdi. Sosial-iqtisadi sahədə həyata keçirilən proqramlar nəticəsində Azərbaycan cəmiyyətinin həyat səviyyəsi xeyli yüksəldi, Bakı dünyanın ən modern şəhərlərindən birinə çevrildi. İndi burada ən mötəbər tədbirlər təşkil edilir, gələnlər razılıqla evlərinə qayıdırlar. Z.Əlizadənin təriflədiyi sovet dövründə Azərbaycanda istehsal olunan 60-dan çox məhsulun satıldığı ölkələrdə bu məhsulların Azərbaycanda istehsal edildiyini bilirdilərmi və həmin ölkələrin insanları Azərbaycanı tanıyırdılarmı? Şübhə edirik, çünki onda müstəqil dövlət olan Azərbaycanın deyil, SSRİ-nin adından danışırdılar. Heydər Əliyevin müstəqil dövlətə rəhbər seçildiyi dövrdən başlayaraq Azərbaycan milli dövlət quruculuğunda misilsiz uğurlar əldə edib. Onların sırasında enerji siyasəti və geosiyasi xətt xüsusi yer tutur. Sirr deyil, ağlı və vicdanı olan hər kəs görür: Azərbaycan indi yalnız regional miqyasda deyil, qlobal səviyyədə də enerji təhlükəsizliyinin təminatçılarından biridir. Belə olmasaydı, Rusiya, İran, ABŞ, Türkiyə, Almaniya kimi dövlətlər Azərbaycanla yaxın əməkdaşlıq etməzdilər. Rəsmi Bakının təşəbbüsü ilə yaradılan üçtərəfli əməkdaşlıq formatları uğurlu olmazdı. Bu, siyasi əməkdaşlıq mədəniyyətinin göstəricisi deyilmi? Hanı Rusiyanı çıxmaq şərti ilə bu səviyyədə əməkdaşlıq formatlarında iştirak edən ikinci bir postsovet məkanı ölkəsi?

Bütün hörmətlərimiz daxilində hətta Ukrayna, Belarus, Qazaxıstan belə bu dərəcədə fəal və səmərəli xarici siyasət yeridə bilmirlər. Özünü "politoloq", "dinşünas" adlandıran Z.Əlizadədən soruşuruq: bir ölkənin xarici siyasətinin uğurları, onun rəhbərliyinin və xalqının düzgün yolda olduğunu göstərmirmi? Dolayısı ilə həmin dövlətin vətəndaşlarının qazancı deyilmi? Bununla müstəmləkə qandalından başqa heç nəyi itirmirik! Bəlkə sizləri məhz elə bu məqam narahat edir?

Demokratiya və din məsələsinə gəldikdə isə, burada təbii ki, çətinliklər vardır. Ancaq hansı dövlətdə belə problemlər yoxdur? ABŞ-damı, Almaniyadamı, bəlkə Rusiyada yoxdur? Qardaş dövlət olan Türkiyədə mövcud deyil?

Hələ başqalarını demirik. Cəmiyyətdə mütləq azadlıqdan, demokratiyadan danışmaq absurddur. Bundan başqa, son zamanlar bir sıra dairələr Azərbaycanı radikal dini qrupların mövcud olduğu ölkə, müxtəlif məzhəblərin at oynatdığı məkan kimi təqdim etməyə çalışırlar. Burada məqsəd aydındır: uzun illərdir ki, düşmənlər Azərbaycanın dünyəvi deyil, radikal dini ideologiyaya boyun əyən və bu kontekstdə milli azlıqlara zülm edən məmləkət obrazını yaratmağa cəhdlər edirlər.

İndi Z.Əlizadə kimi "mütəxəssislər" əsassız olaraq Azərbaycanı dini məzhəblərin əsiri kimi təqdim etməklə düşmənin ideoloji dəyirmanına su tökürlər. Bəli, dünyanın hər bir ölkəsində olduğu kimi, Azərbaycanda da müxtəlif məzhəblər fəaliyyət göstərməyə çalışır, bu məqsədlə müəyyən planlar qururlar. Lakin onların hamısının hüquq-mühafizə orqanlarının sayıqlığı nəticəsində qarşısı qətiyyətlə alınır.

Azərbaycan "banan respublikası" deyil, burada sivil cəmiyyət və güclü dövlət var. Ölkədəki vəziyyətə də rəsmi orqanlar tam nəzarət edirlər. Azərbaycan xalqı kifayət qədər yetkindir və heç bir məzhəbin təsiri altında deyil. Bu ölkənin hansısa məzhəbə qulluq edən məmləkət kimi qələmə verilməsi həqiqəti əks etdirmir. Azərbaycanlılar dini fərqliliyə çox tolerantdırlar. Onlar məzhəb mənsubluğunu siyasi kontekstdə qətiyyən qəbul etmirlər. Buranın insanları öz dinlərini sevirlər, ancaq onun siyasiləşməsi səviyyəsi minimal həddədir.

Bu reallığı görmək gərəkdir, həm də ona görə ki, dövlətimizin düşmənlərinin əlinə süni bəhanələr verməyək. Əgər belə olmasa, özümüz də bilmədən Ermənistanın işğalına haqq qazandırmış olarıq. Şübhəsiz, Z.Əlizadə də daxil olmaqla heç bir Azərbaycan vətəndaşı bunu etməz. Lakin həqiqi azərbaycançı olmaqla, bu bəlalardan və səhvlərdən yaxa qurtara bilərik. Bəlkə bu istiqamətdə düşünək? Hamılıqla!

**Newtimes.az**



## Arif Hacılı rəhbərlik funksiyasını itirib

RƏFİQƏ

***Ataların dediyi kimi, "oğurluğun ömrü 40 gün çəkər". A.Hacılının Müsavat başqanlığını oğurluq yolu ilə əl keçirməsi kimi. Elə buna görə də, başqan olduğu gündən bu günə kimi, nə partiyadakılar, nə də müxalifət düşərgəsindəkilər onu qəbul etmirlər. Elə bu səbəbdən də, A.Hacılının ətrafı sürətlə boşalmaqda davam edir.***

### Arif Hacılı: "Qucağımı açmışam, amma heç kimi qucaqlamadım"

A.Hacılı başqan seçiləndə böyük "arzuları" var idi. Ancaq bu "arzular" orada əməlli-başlı fırtına qopardı, narazılar fırtınası. Həmin fırtınadan sonra, demək olar ki, Müsavatdan "məmə" deyəndən "pəpə" yeyənə kimi, hamı tərk etdi və bu gün də tərk edir. Özü də Hacılıya tərs sillə vura-vura tərk etdilər. Buna isə səbəb, yenə də Hacılının özüdür. Çünki bu adam partiyanın başqanlıq postunu ələ keçirər-keçirməz elə "dərin islahatlar" aparmağa başladı ki, nəticədə, müsavatçılar islah olunmaq yerinə islahsızlaşaraq kütləvi istefalara getdilər.

"Yeni Müsavat"ın baş yazarı R.Arifoğlunun istefasının bu qədər hay-küylü olacağının gözləmirdi. Deyir "sən saydığını say, gör fələk nə sayır". R.Arifoğlu, hətta bildirib ki, qələmimi işə salsam, sənin vay halına.

Deyilənlərə dəstək olan "Yeni Müsavat" qəzetinin yazarı Etibar Seyidağa A.Hacılını siyasətçi kimi tanımadığını bildirib "Arif başqan deyir ki, qucağımı açdım, hamıya dedim gəlin qucaqlaşaq, barışaq. Amma heç kim məni qucaqlamadı". Ay qardaş sənin nəyini qucaqlayacaqlar? Sənin qucağın başdan-ayağa şeytan yuvasıdır: "Qubad İbadoğlunun, Hikmət Hacızadənin, Vurğun Əyyubun və digər müsavatçıların partiyadan gedişi bizə başucalığı gətirmədi, hərəkatda yerini tutmuş adamlar idi, onlar birdən-birə partiyadan getməməli idilər. Bizlər onların partiyadan uzaqlaşmasının qarşısını almalı idik. Amma təəssüf ki, mümkün olmadı. Ona görə də, sabahkı gününü düşün".

Beləliklə, A.Hacılı yaxşı bilir ki, Müsavatın fırtınası bundan sonra daha güclü olacaq.

Etiraf edək ki, rəhbərlik funksiyasını itirən A.Hacılı bu fırtınadan salamat çıxması heç də inandırıcı görünmür...

## Azər Həsrət: "Gülənçilərlə vəhhabiləri birləşdirən çox amillər var"



"Gülənçilərlə vahabiləri birləşdirən çox amillər var. Onlardan ən əsası hər ikisinin Qərbin kəşfiyyat xidmətləri tərəfindən təşkil edilməsi və idarə olunmasıdır". Bunu SİA-ya siyasi şərhçi Azər Həsrət gülənçilərlə vəhabiləri birləşdirən amillərlə bağlı danışarkən deyib. Onun sözlərinə görə, hər iki hərəkatda İslam dini sadəcə maskadır: "Əslində onların heç birinin gerçək İslam dininə dəxli yoxdur. Bu hərəkatların hər ikisi yayıldıqları ərazidə insanları və özəlliklə də dövləti nəzarət altına almağı əsas məqsəd sayır. Təbii ki, Qərbin kəşfiyyat xidmətlərinə bağlı olduqları üçün oradan gələn tapşırıqları da sözsüz yerinə yetirirlər. Bu baxımdan gülənçilərlə vahabilərin işbirliyi məni təəccübləndirmir".

## TQDK-dan tələbələrə xəbərdarlıq

Ali təhsil müəssisələrinin boş qalan plan yerlərinə qəbul olan abituriyentlərin qeydiyyatı sabah - 31 avqust saat 17:00-da başa çatacaq. Tələbə Qəbulu üzrə Dövlət Komissiyasından SİA-ya verilən məlumata görə, 30 avqust saat 12:30-a olan məlumata əsasən, ali təhsil müəssisələrinin boş qalan yerlərinə qəbul olan 553 abituriyentdən 404 nəfəri qəbul olduğu təhsil müəssisəsində qeydiyyatdan keçib. Avqustun 31-i saat 17:00-dək abituriyentlər sənədlərini daxil olduqları təhsil müəssisəsinə təqdim etməklə qeydiyyatdan keçməlidirlər. Qeydiyyatdan keçməmək abituriyentin müvafiq ixtisasa yerləşdirilməsindən imtina etməsi kimi qiymətləndiriləcək və onun qəbul haqqında əmri ali təhsil müəssisəsinə göndərilməyəcəkdir.

## İtaliya səfiri: TAP-ın tikintisi üzrə İtaliyada genişmiqyaslı işlərin başlanmasını gözləyirik



Trans-Adriatik Boru Kəməri (TAP) layihəsi üzrə İtaliyada genişmiqyaslı işlərin başlanılacağı gözlənilir. AZƏRTAC xəbər verir ki, bu barədə İtaliyanın Azərbaycandakı səfiri Ciampaolo Kutillo jurnalistlərə açıqlamasında bildirib. TAP layihəsi üzrə işlərin gedişi barədə danışan C.Kutillo deyib ki, Yunanıstan və Albaniyadan sonra İtaliyada da bəzi hazırlıq işlərinə başlanılıb. Səfir İtaliyanın xarici işlər naziri Paolo Centiloninin noyabrda Azərbaycana səfər edəcəyini bildirib. "Hazırda səfərin dəqiq tarixi və proqramı üzərində iş aparılır", - deyə diplomat qeyd edib.

# Sosial evlərin tikintisinə başlanılır

***Məlum olduğu kimi, ölkə Prezidenti İlham Əliyevin sosial mənzillərin tikintisi və aztəminatlı ailələrin güzəştli şərtlərlə mənzillərlə təmin edilməsi məsələsinə ayırdığı xüsusi diqqəti nəticəsində bu gün bu layihə artıq uğurla reallaşır. Vətəndaşların mənzil-məişət şəraitinin yaxşılaşdırılması məqsədilə inşa olunacaq ilk mənzillər Bakı şəhəri, Yasamal rayonu, xarici dairəvi avtomobil yolunun kənarında yerləşən və sahəsi 11,6 hektar olan ərazidə tikiləcəkdir.***



## Musa Quliyev: "Belə mənzillərin tikintisi əhalinin mənzil təminatının yaxşılaşdırılmasının ən optimal üsullarından biridir"

Sözügedən məsələ ilə bağlı millət vəkili Musa Quliyev qeyd edib ki, sosial mənzillər imkanı və imtiyazları olmayan, gəlirləri orta və ortadan aşağı olan insanlar üçün nəzərdə tutulur: "Belə mənzillərin tikintisi əhalinin mənzil təminatının yaxşılaşdırılmasının ən optimal üsullarından biridir. Azərbaycan Prezidenti İlham Əliyev bu məsələni gündəmə gətirməklə, müvafiq qurumlara öz tapşırıqlarını verməklə, bir daha göstərdi ki, Azərbaycan hökumətinin daxili siyasətində sosial siyasət prioritet istiqamət kimi davam edir və bundan sonra da davam edəcək".



Azərbaycanda mənzilə ehtiyacı olan insanların sayının çox olduğunu deyən millət vəkili bildirdi ki, belə insanların bir qismi ipoteka kreditləşməsi vasitəsilə mənzilə olan tələbatını ödəməyə çalışır, şəhid ailələri, məcburi köçkünlər isə dövlət tərəfindən mənzillə təmin edilir: "Digər kateqoriyalı insanların mənzillə təminatında çox ciddi çətinliklər var. Sosial evlər, məhz bu kateqoriyadan olan insanlar, yəni mənzil almaq imkanı və imtiyazları olmayan, gəlirləri orta və ortadan aşağı olan insanlar üçün nəzərdə tutulur. Cənab Prezident də öz çıxışında dedi ki, yalnız Bakıda deyil, respublikanın digər şəhər və rayonlarında da sosial evlər tikiləcək".

M.Quliyev bildirib ki, sosial evlər aşağı maya dəyəri ilə qısa müddətə tikilən evlərdir. Həmin evlərin sahəsi o qədər böyük olmasa da, yaşayış üçün şəraiti olur: "Sakinlər sosial mənzillərə köçdükdən sonra kirayədə qaldıqları müddət ərzində kirayə haqlarını kredit ödənişi kimi ödəyirlər. Mənzilin dəyərini tam ödədikdən sonra isə, mənzili özəlləşdirərək, onun tam sahibi olurlar".

M.Quliyev, həmçinin bildirib ki, sosial evlərin inşası iqtisadiyyatın bir çox sahələrində də dirçəlişə səbəb olacaq: "Çünki Azərbaycanda tikinti materiallarının əksəriyyəti elə respublikada istehsal olunur. Sosial evlərin inşası tikinti mallarının istehsalı və satışı bazarını canlandıracaq. İnşaat, xidmət və iaşə sektorlarında yeni iş yerləri açılacaq".

## Vüqar Bayramov: "Ölkə Prezidenti sosial evlərin yaradılması ilə bağlı siyasi iradə nümayiş etdirdi"

İqtisadçı-ekspert Vüqar Bayramov ilk sosial evlərin inşasının Yasamal rayonunda olacağını qeyd etdi: "Cari ilin sonunda tikinti işlərinə başlanacağı gözlənilir və ilkin hesablamalara görə, salınacaq şəhərcikdə 2 minə yaxın mənzil inşa ediləcək ki, yəni həmin sayda da ailə mənzillə təmin olunacaq".

İqtisadçı sosial mənzillər üçün ayrılan məbləğin 150 manatdan aşağı qiymət olacağını bildirib: "Daha dəqiq məbləğ xərclər hesablandıqdan sonra bəlli olacaq. Ancaq bütün hallarda ikiotaqlı mənzillərin aylıq ödənişi təxminən 150 manatdan aşağı dəyərində müəyyənləşəcək. Bununla da, vətəndaşlar öz mənzil problemlərini sosial evlər vasitəsilə həll etmiş olacaqlar".



"Demək istəyirəm ki, sosial evlərin formalaşması və yaradılmasını dəstəkləyənlərdən biriyəm"-deyən V.Bayramlı onu da bildirdi ki, 5 ilə yaxındır ki, bu istiqamətdə tenderlərin keçirilməsi ilə bağlı fikirlərimi bildirirəm: "Sosial evlərin yaradılması çox vacibdir və ölkə başçısının bununla bağlı səsləndirdiyi fikirlər təqdirəlayiqdir. Bu ölkəmizdə mənzil təminatının genişləndirilməsi baxımından olduqca vacibdir. Sosial evlər vətəndaşlara az vəsait ödəməklə mənzil əldə etməyə imkan yaradacaq. Ölkə Prezidenti sosial evlərin yaradılması ilə bağlı siyasi iradə nümayiş etdirdi. Bunu nəzərə alsaq, artıq sosial evlərin inşasına başlamaq üçün yerlər də müəyyənləşdi. Bu da, o deməkdir ki, 2019-cu ilin əvvəllərindən başlayaraq, Azərbaycan vətəndaşları sosial evlərə sahib ola biləcəklər. Dövlətin bu istiqamətdə atdığı addımları dəstəkləyirəm. Bu, həm dövlət, həm də vətəndaş üçün vacibdir".

***Rəfiqə HÜSEYNOVA***

# Qeyri-rəsmi müstəmləkə - Nüfuzlu nəşr Ermənistandan yazdı



"Əslində, Ermənistanın müstəqilliyinin 25-ci ildönümü sevinc üçün səbəb olmalıdır, amma ermənilərin əksəriyyəti əldən verilmiş imkanlar barədə düşünür". "Report" xəbər verir ki, bu barədə ABŞ-ın nüfuzlu "Huffington Post" nəşrində erməni müəllif Armine Saakyan yazıb. Müəllif, Ermənistanın SSRİ-dən ayrılıb müstəqilliyini elan etməsinin 25-ci ildönümü ərəfəsində ölkənin üzləşdiyi fəlakətli vəziyyətə həsr etdiyi məqaləsində qeyd edib ki, ölkə müstəqilliyinin ildönümünü keçmiş SSRİ-nin ən kasıb ölkələrindən biri statusunda qeyd etməyə hazırlaşır.

A.Saakyan vurğulayıb ki, Ermənistanda korrupsiya halları baş alıb gedir, ölkədə zəngin və yoxsul təbəqə arasında böyük uçurum var. Onun fikrincə, Ermənistan bu gün necə "sağ qalacağını" düşünür. İndiki Ermənistanı sovet dövründəki ilə müqayisə edən müəllif yazıb ki, əvvəllər ermənistanlı tələbələr SSRİ-nin nüfuzlu universitetlərində təhsil alırdılar, indi isə ölkənin elit ali təhsil ocaqlarına daxil olmaq üçün rüşvət verməlisən: "Eyni durum səhiyyə sahəsində də mövcuddur. Əgər əməliyyat olunmalısınızsa, rüşvət versəz yaxşıdır, əks halda, uzun müddət yaşamayacaqsız". Məqalədə eyni zamanda vurğulanıb ki, ölkənin bu vəziyyətdə olmasının səbəbi sözdə azad olub, əslində isə hələ də Rusiyanın müstəmləkəsi olaraq qalmasıdır. A.Saakyan ölkənin 2013-ci ildə Avropa İttifaqı ilə "Assosiasiya sazişi" imzalamaqla Rusiyanın asılılığından çıxmaq üçün şansı olduğunu, amma həmin dövrdə Rusiya prezidenti Vladimir Putinin ermənistanlı həmkarı Serj Sarqsyanı danışıqlar üçün yanına çağırdığını xatırladıb: "Görüş iştirakçılarından başqa heç kim prezidentlərin nələrdən danışdıqlarını bilmir, lakin Putinin Sarqsyana ultimatum verdiyi aydın məsələdir. Çünki bu görüşdən sonra Ermənistan Avrasiya İttifaqına daxil olduğunu bəyan etdi. Ermənistanda qərbyönümlü hökumətin olmasını ən az Putin istəyir". Müəllif məqaləsinin sonunda vurğulayıb ki, onun özü də Ermənistanın müstəqilliyinin 25-ci ildönümünü sevinclə qeyd etməyəcək, çünki ölkəsi müstəqil deyil.

# Sentyabrda "Dərinsulu Günəşli" platformasının planlaşdırılmış dayandırılması proqramı həyata keçiriləcək



Sentyabrda "Dərinsulu Günəşli" platformasının planlaşdırılmış dayandırılması proqramı həyata keçiriləcək. Bu barədə AZƏRTAC-a "BP Azerbaijan" şirkətindən məlumat verilib. Bildirilir ki, "Azəri-Çıraq-dərinsulu Günəşli" (AÇG) yatağının işlənməsi layihəsinin illik iş proqramının bir hissəsi olaraq sentyabr ayında "Dərinsulu Günəşli" platformasının planlaşdırılmış dayandırılması proqramı həyata keçiriləcək. Plana əsasən, "Dərinsulu Günəşli" platformasından hasilat 2016-cı il sentyabr ayının 1-dən başlayaraq təxminən 11 gün ərzində planlaşdırılmış profilaktik işlər, inspeksiya və layihə işlərinin effektiv şəkildə aparıla bilməsi üçün dayandırılacaq. Bu işlər platformanın təhlükəsiz, etibarlı və ətraf mühitə ziyan vurmadan istismar qabiliyyətini davam etdirməsi üçündür. Belə proqramlar normal əməliyyatların bir hissəsidir və onlar planlaşdırılmış şəkildə müntəzəm həyata keçirilir. Bu proqramın hazırlığına 2015-ci ildən başlanıb və proqram üzrə həyata keçirilən işlər 2016-cı ilin illik iş proqramı və büdcəsinə daxil edilib. Platformanın müvəqqəti dayandırılması həmçinin bu ilin hasilat planına da daxil edilib. Digər platformalardan - "Mərkəzi Azəri", "Qərbi Azəri", "Şərqi Azəri", "Çıraq", "Qərbi Çıraq" və "Şahdəniz" platformalarından hasilat, həmçinin Bakı-Tbilisi-Ceyhan, Cənubi Qafqaz qaz Boru Kəməri və Qərb Marşrutu İxrac Boru Kəməri vasitəsilə ixrac əməliyyatları normal davam edəcək. Səngəçal terminalı da normal işləyəcək, həmçinin Ceyhan və Supsa terminallarında tankerlərin yüklənməsi və yola salınması cədvələ əsasən davam edəcək. Bu planlaşdırılmış proqramlar müntəzəm aparılan inspeksiya, profilaktik işlər və layihənin yerinə yetirilməsi fəaliyyətləri üçündür. Onlar obyektlərin uzunmüddətli təhlükəsiz, etibarlı, bütöv şəkildə, ətraf mühitə ziyan vurmadan istismarının bir hissədir və əsasən elə profilaktik təmir və modifikasiya işlərindən ibarət olur ki, həmin işləri yalnız obyektin fəaliyyətini müvəqqəti dayandıraraq həyata keçirmək mümkündür.

# "Qazprom" "Türk axını" layihəsi üzrə avqustun 31-də Türkiyədə danışıqlar aparacaq



Rusiyanın enerji nəhəngi "Qazprom" "Türk axını" qaz boru kəməri (Turkish Stream) layihəsinin bərpası ilə əlaqədar avqustun 31-də Türkiyədə danışıqlar aparacaq. AZƏRTAC TASS informasiya agentliyinə istinadla xəbər verir ki, bu barədə "Qazprom"un idarə heyətinin sədr müavini Aleksandr Medvedev məlumat verib. O bildirib ki, bununla bağlı danışıqlar faktiki olaraq aparılır və prosesin bərpası barədə razılıq əldə edilib. Avqustun 31-də "Qazprom"un idarə heyətinin sədri Aleksey Millerin Türkiyəyə səfəri planlaşdırılır. Səfər çərçivəsində bir sıra görüşlər keçiriləcək.

Qeyd edək ki, ötən günlərdə Rusiyanın energetika naziri Aleksandr Novak "Türk axını" layihəsi üzrə Rusiya ilə Türkiyə arasında hökumətlərarası sazişin oktyabrda imzalana biləcəyini bildirmişdi. A.Novak həmçinin Rusiya və Türkiyə prezidentlərinin Sankt-Peterburq görüşünü şərh edərkən "Türk axını" üzrə ilk boru kəmərinin tikintisinə 2019-cu ilin ikinci yarısında başlanılacağını demişdi. İyunun 28-də isə Rusiyanın enerji nəhəngi "Qazprom" şirkətinin "Türk axını" layihəsi üzrə Türkiyə tərəfi ilə danışıqların yenidən başlanması üçün dialoqa hazır olduğu bildirilmişdi.

Xatırladaq ki, ötən ilin noyabrında Rusiyaya məxsus "Su-24" tipli döyüş təyyarəsinin Türkiyə tərəfindən vurulmasından sonra "Qazprom"un idarə heyətinin sədri Aleksey Miller "Türk axını" layihəsi üçün Türkiyə ilə danışıqların dayandırıldığını demişdi. "Qazprom" "Türk axını" kəmərinin ötürücülük qabiliyyətini iki dəfəyədək azaldaraq kəmərlə 32 milyard kubmetr təbii qazın nəql olunmasına da qərar vermişdi. "Türk axını" ilə Rusiya qazının Türkiyədən keçməklə Avropaya çatdırılması nəzərdə tutulur. Kəmərlə 16 milyard kubmetr qazın Avropanın, qalan hissəsinin isə Türkiyənin daxili tələbatının ödənilməsi üçün istifadə edilməsi planlaşdırılır. Layihə üzrə iki boru kəmərinin tikilməsi nəzərdə tutulur.

# Siyasətdə Cəmil Həsənli sindromu: haqsızlıqla düşmən dəyirmanı arasında

***Həyatda qəribəliklər çoxdur. Bəzən onlar elə absurd məzmun kəsb edir ki, insan çox təəccüblənir: Yəni belə də ola bilərmiş? Türkiyədə uğursuz hərbi çevriliş cəhdindən sonra "FETÖ" şəbəkəsinə qarşı geniş təhqiqatlar başlayıb. Onun Azərbaycana da təsiri vardır. Faktlar göstərir ki, burada da həmin şəbəkənin müəyyən uzantıları mövcuddur. Hüquq-mühafizə orqanları bununla bağlı tədbirlər görməkdədirlər. Müxalif düşərgədə də "FETÖ"yə bağlı dairənin olduğu haqqında informasiyalar yayılır. Cəmil Həsənli isə bundan qəzəblənərək həmin şəbəkənin tam zərərsizləşdirilməsi fikrini ifadə edən Prezident Administrasiyası rəhbərinin müavini, Xarici əlaqələr şöbəsinin müdiri Novruz Məmmədova qarşı əsassız ittihamlar irəli sürüb. Bir sıra hallarda bu, hətta şəxsi qərəzlilik müstəvisinə də keçib. C.Həsənlinin bu cür məntiqsiz və ədalətsiz davranışları arxasında hansı məqamlar dayanır?***



## Köhnə mahnı yeni ifada: mənəvi inkişaf olmayanda

Siyasətlə məşğul olan adamda ədalət hissinin güclü olması vacib şərtlərdəndir. Çünki siyasi fəaliyyətdə tez-tez ziddiyyətli situasiyalarla rastlaşılır, fikirləri zərgər dəqiqliyi ilə ifadə etmək lazım gəlir. Burada vicdan həqiqəti söyləməyə təhrik etməlidir. Təbii ki, əgər... vicdan varsa!

Siyasətə elmdən gələn insan isə bu şərtlərə daha sərt şəkildə əməl etməlidir. Çünki elmin əsas məqsədi həqiqəti axtarmaqdır. Və onun harada olmasının - məişətdəmi, kainatın əngəlliklərindəmi, qəlbdəmi, fiziki cisimdəmi, kimyəvi elementdəmi, bioloji varlıqdamı, yaxud siyasətdəmi, fərqi yoxdur. C.Həsənlinin bu şərtlərə uyğun gəldiyini demək olduqca çətindir. Onun heç bir siyasi əhəmiyyəti olmayan son yazısında isə hədyanlarla dolu ifadələr işlədilib.

Əvvəlcə söhbətin konkret olaraq nədən getdiyini izah etməyə çalışaq. Türkiyədəki uğursuz hərbi çevrilişdən sonra Fətullahçı terror təşkilatı ("FETÖ") sisteminin çökdürülməsi prosesi başlandı. Bunun həmin şəbəkənin Azərbaycandakı təmsilçiləri üçün də təsiri olacağını proqnozlaşdırmaq çətin deyildi. Faktlar göstərir ki, "FETÖ" cəmiyyətin müxtəlif təbəqələrinə sıza bilib. O cümlədən Qafqaz Universiteti kimi böyük təhsil müəssisəsində də dərin yuva salıb. Bundan başqa, həmin şəbəkənin harada nə yaratdığını da hüquq mühafizə orqanları bilər. Biz onu vurğulaya bilərik ki, Azərbaycan hakimiyyəti bu məsələdə Türkiyə iqtidarının yanında oldu və tamamilə doğru addım atdı. Çünki məsələ müstəqil dövlətçilikdən, suverenliyin möhkəmləndirilməsindən və davamlı milli inkişafın təmin edilməsindən gedir.

O da təbiidir ki, belə vəziyyətdə Azərbaycanın vətənpərvər və dövlətçiliyə sadiq rəsmi şəxsləri "FETÖ" ilə mübarizədə qətiyyətli mövqe tutmalıdırlar. Azərbaycan Prezidenti Administrasiyası rəhbərinin müavini, Administrasiyanın xarici əlaqələr şöbəsinin müdiri Novruz Məmmədov da məhz belə bir mövqe nümayiş etdirdi. O, jurnalistlərə verdiyi müsahibədə vurğulayıb ki, "FETÖ" təşkilatı ilə bağlı Azərbaycanda da araşdırmalar aparılır. Kimliyindən asılı olmayaraq, onların buradakı tərəfdarları üzə çıxarılacaq. Həmin sırada "FETÖ"nün müxalif düşərgədəki əlaqələri də aydınlaşdırılmalıdır. Bütün bunlar "Azərbaycan dövlətinə və dövlətçiliyinə, onun maraqlarına ziyan vurmaq cəhdlərinin qarşını almaq" məqsədilə ediləcək.

Bu fikirlərdə nə məntiqi, nə siyasi, nə də obyektivliyin gözlənilməsi baxımından qəbul edilməyən bir kiçik məqam belə yoxdur. Dövlət rəsmisinin aydın və dəqiq ifadə etdiyi mövqedir. Əgər "FETÖ" ziyanlıdırsa və Azərbaycan dövlətçiliyinə zərər yetirirsə, qarşısı mütləq alınmalıdır. Burada həmin şəbəkəyə kimlərin daxil olmasının önəmi yoxdur. Çünki söhbət dövlətin təhlükəsizliyindən gedir. Türkiyə hüquq-mühafizə orqanları aydınlaşdırıblar ki, "FETÖ" xarici dairələr tərəfindən uzun müddət hazırlanıb, dövlət strukturlarına yeridilmiş təhlükəli şəbəkədir.

Bəs belə isə, C.Həsənlini Novruz Məmmədovun məntiqində hansı cəhətlər qane etmir? Ümumiyyətlə, o nə istəyir? Reallıqda C.Həsənli Novruz Məmmədova irad tutacaq nə biliyə, nə də siyasi keçmişə malik deyil. Konkret olaraq o, müxalifətdə "FETÖ" üzvlərinin axtarılmasından narazıdır. Əgər faktlar müxalif düşərgədə "FETÖ"yə qulluq edən, imamlıq yapan kəslərin olduğunu sübut edirsə, onda hüquq mühafizə orqanları bunu nəyə görə gizlətməlidirlər?

Və bu məsələnin həmin şəbəkənin başqa hansı kəsimlərdə olub-olmamasına nə dəxli var? Əgər bir tarix professoru bu cür məntiqdən çıxış edirsə, onun elmiliyinə və siyasətçi kimi ədalətliliyinə ciddi şübhələr yaranır. Çünki faktiki olaraq uşaq höcəti situasiyası yaranır. C.Həsənli deyir ki, "niyə bizimkilərin adını çəkirsiniz, başqa yerlərdə də var"!

Var və ya yoxdur, bunu təhqiqatlar, axtarışlar, araşdırmalar sübut edəcək. Ancaq bir müxalifət partiyasının vəzifəli üzvləri "FETÖ" ilə əməkdaşlığı sübut edən dəlillər əsasında saxlanılırsa, buna normal yanaşmaq lazımdır. Və barmağını başqa yerə tuşlayıb, özünü təmiz kimi göstərmək ədalətli siyasətçiyə yaraşmaz, üstəlik, yüksək vəzifəli dövlət məmurlarından biri haqqında yalan və böhtan danışmaz.

Jurnalistlərlə tez-tez görüşən Novruz Məmmədovun alicənablığı, suallara lakonik və dolğun cavab verməsi, obyektiv və hər zaman Azərbaycan dövlətçiliyi mövqeyindən fikir bildirməsi oxumağı bacaran hər kəsə məlumdur. Məsələn, Sankt-Peterburq görüşündən sonra Azərbaycanın mövqeyini obyektiv olaraq dünya ictimaiyyətinə məhz Novruz Məmmədov çatdırdı. Bunu ona yalnız düşmənlər irad tuta bilərdilər! Ona görə ki, Novruz Məmmədov aydın məntiqlə, açıq ifadə etdi ki, Azərbaycan mərhələli həll planını müdafiə edir və bu mövqeyini Sankt-Peterburqda ortaya qoyub. Sonrakı proseslər göstərdi ki, doğrudan da ölkə rəhbərliyi həmin görüşdə öz sözünü qətiyyətlə deyib.

## "Vicdan susanda": düşmən düşərgəsinə aparan yol

Buna ermənilərin hirs və qəzəblə reaksiya verəcəyini hamımız gözləyirdik. Çünki ermənilər həm haqsızdırlar, həm də təcavüzkarlıq edərək başqalarının haqlarını tapdalayıblar. Onlar özlərinə haqq qazandırmaq üçün hər alçaqlığa və şərəfsizliyə əl atırlar. Bəs azərbaycanlı professor-siyasətçiyə nə düşüb ki, gedib düşmən məntiqinin yanında dayanır? Məgər o, bilmirmi ki, Kremlin bu kimi hadisələrə reaksiyası necə ola bilər? Bu məsələ o qədər aydındır ki, deməyə belə adam utanır. Xocalımı yaddan çıxıb, yaxud Şuşamı unudulub? Azərbaycan Ordusunun zəfər yürüşünü aprel döyüşlərində kimlərin dayandırdığı nə tez yaddan çıxdı? Belə tarix tədqiqatçısı olar? Cəmi 4 ayın hadisəsini yadda saxlayıb, obyektiv münasibət bildirməyən, dərin tarixi analiz apara bilməyən biri tələbələrə Vətən tarixini necə tədris edə bilər?

Novruz Məmmədovun Sankt-Peterburq görüşü haqqında dedikləri "yalan" sayanlar, əslində, elə əsl "FETÖ"çüdürlər! Çünki faktlar sübut edir ki, məhz həmin şəbəkəyə daxil olan generallar Türkiyədə terrora qarşı sistemli mübarizə aparmağa mane olublar. Onlar PKK-nın məhv edilməsi qarşısına əngəllər çıxarıblar, Türk Ordusunun Suriyaya müdaxilə etməməsi üçün min cür bəhanələr uydurublar. Azərbaycan da Dağlıq Qarabağda erməni terroru ilə üz-üzədir. Rəsmi Bakı onu yox etmək üçün ciddi mücadilə verir - həm hərb, həm diplomatiya, həm də informasiya meydanında. Əgər biri informasiya məkanında düşmən böhtanını vətəndaşı olduğu dövlətin yüksək vəzifəli məmuruna qarşı arqument kimi istifadə etməyə çalışırsa, onun adı elə "FETÖ"dür.

Belə görünür ki, siyasi səriştəsizlik dairəsindən çıxa bilməyənlər ağına-bozuna baxmadan ağızlarına nə gəlir, danışmağa meyillidirlər. Onlar dövləti maraqları belə ucuz qiymətə sata bilirlər. Bu halda da hesab edirlər ki, Novruz Məmmədova pislik edirlər, onun ədalətli və obyektiv mövqeyindən qıcıqlandıqlarını gizlətməyə çalışırlar, ancaq reallıqda Azərbaycan dövlətçiliyinə zidd olan mövqe tuturlar. Erməni şərini həqiqət kimi azərbaycanlıların üzünə çəkməyin başqa adı yoxdur. Keçmiş olsun, elmimizə, ziyalılığımıza və siyasətçiliyimizə!

Axı, Heydər Əliyev kimi böyük siyasətçinin vəzifədə irəli çəkdiyi və uzun müddətdir ki, məsuliyyəti və zəhməti ilə ümidləri doğruldan bir insanı necə beynəlxalq münasibətlər sahəsində naşı adlandırmaq olar? Geosiyasətə, xarici siyasət məsələlərinə aid əsərlərin, çoxsaylı məqalələrin müəllifi olan Novruz Məmmədov bir neçə xarici dildə sərbəst danışır və uzun illərdir ki, yüksək səviyyəli görüşlərin iştirakçısıdır. Sadə insanlara belə aydındır ki, peşəkarlıq qabiliyyəti olmayanlar həmin səviyyədə uzun müddət duruş gətirə bilməz. Necə ki, C.Həsənlinin mənsub olduğu siyasi düşərgə hakimiyyətdə 1 ildən çox qala bilmədi, Heydər Əliyev komandasında layiqli olmayan uzun müddət burada duruş gətirə bilməz!

Başqa tərəfdən, Novruz Məmmədov konkret dövlətlərarası müzakirələrin, görüşlərin, siyasi debatların iştirakçısıdır. Bu kimi işlərin öhdəsindən gəlmək kifayət qədər hazırlıq tələb edir. Novruz Məmmədov fəaliyyəti ilə sübuta yetirib ki, diplomatiya və beynəlxalq münasibətlərin incəliklərinə bələddir. Bu sahənin həm nəzəri, həm də praktiki aspektlərini Ümummilli Lider Heydər Əliyevdən və onun layiqli davamçısı İlham Əliyevdən böyük ustalıqla mənimsəyib. Diplomatiya sahəsində çoxillik fəaliyyətinin və ikitərəfli əlaqələrin inkişafına verdiyi töhfənin nəticəsidir ki, ölkəmizin və ayrı-ayrı xarici ölkələrin ali mükafatları ilə təltif olunub. Azərbaycanın tanınmış dövlət və siyasi xadimidir.

C.Həsənlinin qeyri-ciddi fikirləri isə daha çox onun özünə aid edilə bilər. Belə bir adam təəssüflər olsun ki, vaxtilə prezidentliyə namizəd də olub. Yaşının ahıl çağında yalan danışmaqdan, hərzə-hədyan deməkdən, gözə kül üfürməkdən usanmır. Yazıqlar olsun! Həm də C.Həsənli başqası haqqında danışanda, aynada özünə baxsa, daha yaxşı olmazdımı? Saxta yolla özünə təqaüd düzəldib, dövlətdən hər ay iki min manat alan biri hansı ədalətdən, dürüstlükdən danışa bilər?

Burada bir faktı da xatırlamaq yerinə düşərdi. C.Həsənli deputat olduğu zaman onun mətbuatda, elə rəsmi dövlət qəzetlərində dərc olunan yazıları hər şeyi sübut edir. Amma, görünür, onun xroniki xəstəlikləri yaddaşına daha pis təsir göstərib. Tarixçi olsa da, dünən danışdıqları və yazdıqları bu gün yadından çıxır. Baxın, 2010-cu ildə Milli Məclisdə dövlət büdcəsi zərfinə daxil olan sənədlərin müzakirəsi zamanı C.Həsənli nə demişdi: "Bu gün 2011-ci ilin dövlət büdcəsi müzakirə olunur. Demək istəyirəm ki, müzakirəyə təqdim olunan büdcə kifayət qədər peşəkarcasına hazırlanıb. Bununla belə, büdcə gəlirləri artım tempini saxlamaqdadır. Təbii ki, bu, müsbət tərəfdir. Büdcə vəsaitlərinin xərclənməsi ilə bağlı bir-iki məsələni qeyd edərək, digər fikirlərimi sizlərə çatdırmaq istəyirəm. Sadəcə olaraq, büdcə vəsaitlərinin xərclənməsi ilə bağlı təhsil sisteminə diqqətinizi yönəltmək istərdim. Qeyd etmək istəyirəm ki, son bir neçə ildə büdcə və qeyri-büdcə vəsaiti hesabına Azərbaycan məktəblərinin maddi-texniki bazasının təkmilləşdirilməsi, məktəb binalarının yenidən tikilməsi istiqamətində çox böyük uğurlar əldə edilib. Azərbaycanda məktəb fondunun 40 faizi yeniləşib ki, bu da son dərəcə müsbət hadisədir. İkincisi, Azərbaycan Təhsil Nazirliyi tərəfindən uzaq dağ kəndlərinə müəllimlərin xüsusi şərtlərlə göndərilməsi istiqamətində büdcə vəsaitindən səmərəli istifadə edilir. Ümid edirəm ki, bütün bunlar təhsil və xüsusilə orta məktəb sisteminin qaldırılması istiqamətində Təhsil Nazirliyinin götürdüyü xətti doğruldacaq". Bizcə, hər şey aydındır!

Əslində, C.Həsənlinin hədyanlarına cavab verməmək də olardı. Ancaq bəzən insan ləyaqətini gözləyib susanda, "vicdan da susur"! Vicdan susanda isə faciələrin ardı-arası kəsilmir. Xüsusilə mövzu Vətən, Dövlət və Qarabağdırsa, səbir kasası daşa bilər!

Budur C.Həsənlinin və onun kimilərin əsl siması! Novruz Məmmədov üçün isə əsas məsələ Azərbaycan dövlətinin və xalqının milli maraqlarıdır.

**Newtimes.az**

səs

www.sesqazeti.az

facebook Ses Media Holding

31 avqust 2016-cı il

SİYASİ RAKURS

# Gürcüstan ermənisinin həyasızlığının son həddi

## *Yaxud gürcü deputatlar həqiqətənmi onu dəstəkləyirlər?*

***Sirr deyil ki, erməni həyasızlığı özünü bütün məcralarda sübuta yetirib. Bu “millətin” zərərli geni hara düşürsə, həmin yerdə mütləq şəkildə münaqişə, qalmaqal və savaşlar baş qaldırır. Təkcə Qarabağ münaqişəsi və Azərbaycanın hazırkı Ermənistan ərazisindəki əzəli torpaqları ətrafında mövcud olan tarixi faktlar da, məhz bu cür düşünməyə zəmin yaradır.***

Çox yəqin ki, Qərbdən Şərqə, Şimaldan Cənuba qədər səpələnmiş bu “millət” hələ çox yerlərdə öz xislətini nümayiş etdirərək, əsl simasını aşkara çıxarmalı olacaq. Bu hal, qonşu Gürcüstanda da baş verir. Belə ki, Ermənistanın “tert.am” saytı (http://www.tert.am/ru/news-/2016/08/30/javaxq/2117778). Gürcüstan parlamentinin erməni deputatı Samvel Petrosyanın həyasız simasını təbliğ edən material dərc edib. Erməni deputatın sayta verdiyi açıqlamanın bəzi detallarına diqqətn yetirək: “Artsax” (yəni Qarabağ-R.R.) müstəqildir və Grcüstanın onu tanıyıb-tanımaması əhəmiyyətli deyil” (?!-R.R.). Bunu Gürcüstanda doğulmuş Grcüstanın çörəyini yeyib, suyunu içmiş və hazırda Gürcüstan parlamentinin deputatı olan bir erməni deyir!



### Erməni xislətindən doğan çirkinlik: “Dövlət maraqları mövcuddur və bu, Azərbaycanın strateji partnyoru olan Gürcüstana imkan vermir ki, rəsmi şəkildə “soyqırımı faktını” tanısın”

Petrosyan sözlərinə davam edərək bildirir ki, buna rəğmən, Cavaxetiya erməniləri üçün daha vacib məsələ “erməni soyqırımını” tanımaqdır. Belə ki, oktyabrın 8-də Gürcüstanda baş tutacaq parlament seçkiləri ərəfəsində keçirdiyi görüşlərində sərsəm iddiaları ilə daha çox yadda qalan Syoma (orada onu bu cür adlandırırlar-R.R.) bu da, azmış kimi, gürcülərin də adından danışmağı unutmayıb. O, yenidən deputat seçiləcəyinə ümid edərək, bildirib ki, Cavaxın erməni əhalisi 70%-i əhatə edir və onlar, məhz 1915-ci il “soyqırımından” (?-R.R.) sonra oraya yerləşiblər: “Gürcüstan parlamentində bu məsələni qaldıran və sona qədər gedəcək deputat böyük uğrulara imza atacaq. Tarixi ədalət bərpa olunmalıdır. Yeri gəlmişkən, qeyd edim ki, kuluarlarda mənimlə söhbət edən Gürcüstan deputatları tələblərimlə razı olduqlarını deyirlər. Lakin dövlət maraqları mövcuddur və bu, Azərbaycanın strateji partnyoru olan Gürcüstana imkan vermir ki, rəsmi şəkildə “soyqırımı faktını” tanısın”.

### Ən azından, Gürcüstanda yaşayan azərbaycanlılarla yanaşı, Azərbaycan vətəndaşları da bu erməni həyasızlığına görə cavab tələb etmək hüququna malikdirlər...

Maraqlıdır ki, gürcüstanlı erməni deputat gürcü deputatların adından danışmaqla yanaşı, seçiləcək erməni deputatın (hətta özü də olmasa belə-R.R.) bu işi aparacağını deyib. Həmçinin, Cavaxetiya ermənilərinin hüquqlarının pozulmasını da iddia edən həyasız erməni deputatının bu iddiaları gürcü parlamentinin səlahiyyətliləri tərəfindən qiymətləndirilməmiş qalıb. Maraqlıdır, həqiqətənmi gürcü deputatlar Syoma adlı həyasız erməni deputatının onların yerinə danışmasına susqun qalmaqla razılıqlarını bildirirlər? Əgər belə deyilsə, çox yəqin ki, bir açıqlama veriləcək. Ən azından, Gürcüstanda yaşayan azərbaycanlılarla yanaşı, Azərbaycan vətəndaşları da bu erməni həyasızlığına görə cavab tələb etmək hüququna malikdirlər...

**Rövşən RƏSULOV**

# “Uorlikin bəyanatının reallaşması üçün işğala son qoyulmalıdır”



“ATƏT-in amerikalı həmsədri Ceyms Uorlikin Dağlıq Qarabağın təhlükəsizliyinin təmin edilməsi məqsədilə beynəlxalq sülhməramlı qüvvələrin orada yerləşdirilməsi ilə bağlı bəyanatının reallaşması üçün ilk növbədə işğala son qoyulmalıdır”. Bu fikirləri SİA-ya açıqlamasında siyasi şərhçi Elçin Mirzəbəyli deyib. O bildirib ki, Dağlıq Qarabağa beynəlxalq sülhməramlı qüvvələrin yerləşdirilməsi məsələsi yalnız münaqişə həll edildikdən sonra, Dağlıq Qarabağa, eləcə də digər ərazilərə köçəcək insanların təhlükəsizliyinin təmin edilməsi məqsədilə müzakirə mövzusu ola bilər: “Lakin prosesin əvvəlində belə bir addımın atılması şübhəsiz ki, yolverilməzdir. İndiki şəraitdə Dağlıq Qarabağa beynəlxalq sülhməramlı qüvvələrin yerləşdirilməsi, mövcud status-kvonun qorunub saxlanmasına xidmət edəcək. Bu baxımdan amerikalı həmsədrin bəyanatı hansı prinsipdən çıxış edilərək verildiyi hələ ki bəlli deyil. Yəni bu qüvvələrin prosesin hansı mərhələsində Dağlıq Qarabağ yerləşdirilməsi nəzərdə tutulduğu açıqlanmır. Qənaətimə görə, bu, amerikalı həmsədrin növbəti monipulyativ açıqlamasıdır. Düşünürəm ki, sözügedən məsələ danışqlar prosesinin indiki mərhələsində tamamilə aydınlaşmış müddəalarından biri deyil”. E. Mirzəbəyli qeyd edib ki, həmsədrlərin davranışları onların münaqişənin tezliklə həllində maraqlı olduqlarını göstərmir: “Münaqişənin tez bir zamanda həll olunması ilk növbədə Azərbaycanın maraqlarına uyğundur. Lakin mən ATƏT-in Minsk Qrupunun həmsədrlərinin, o cümlədən də amerikalı həmsədrin münaqişənin tezliklə həllində nə qədər maraqlı olduğunu deyə bilmərəm. Çünki, bu onların davranışlarında o qədər də nəzərə çarpmır. İndiki şəraitdə Ermənistan yenə də özünün monipulyativ davranışlarını davam etdirir. Amma bunun müqabilində düşmən ölkəyə qarşı konkret iqtisadi, diplomatik təzyiqlərin edildiyini müşahidə etmirik”.

# Nizami Cəfərov: “Azərbaycanın tarixi coğrafiyası həmişə multikulturalizmin bütün dünyada əsas vətənlərindən biri olub”



“Azərbaycan xalqı yüz illər boyu multikultural bir xalq kimi formalaşıb”. Bu fikri Milli Məclisin deputatı Nizami Cəfərov deyib. N.Cəfərov bildirib ki, Azərbaycanın tarixi coğrafiyası həmişə multikulturalizmin bütün dünyada əsas vətənlərindən biri olub. Onun sözlərinə görə, Ümummilli liderimiz Heydər Əliyev tarixi ənənələrə istinad edərək multikulturalizmi Azərbaycan dövlətinin siyasəti səviyyəsinə yüksəltməklə həmin siyasətin geniş perspektivlərini, potensial imkanlarını da müəyyənləşdirib. “Eyni zamanda, beynəlxalq aləmdə get-gedə iqtisadi, ictimai-siyasi və mədəni nüfuzu güclənən Azərbaycanın əsas müəlliflərindən biri olduğu multikulturalizm siyasətini və ideologiyasını müasir dünyaya daha geniş miqyasda çatdırmasına böyük ehtiyac vardır. Multikulturalizmin Azərbaycan təcrübəsi sübut edir ki, müxtəlif mənşəli etnoslar eyni, yaxud oxşar etnoqrafik məkan yaratmaq imkanlarına malikdirlər, öz dillərinin ünsiyyət sferasını qorumaq şərtilə regionda daha geniş yayılmış Azərbaycan dilindən ümumi ünsiyyət vasitəsi kimi rahat istifadə edirlər, hər bir din təmsilçisi digər dinlərə mənsub olan azlıqlara tamamilə dözümlü yanaşır və eyni sosial-siyasi münasibətlərin subyekti olmaqla Azərbaycan Respublikasının vətəndaşıdırlar. Ulu öndər Heydər Əliyevin milli dövlət quruculuğu siyasətində yerli etnoqrafik mühitlərin qorunması və inkişaf etdirilməsi həmişə əsas olub. Bu gün isə yeni tarixi imkanlar şəraitində bu siyasət daha yüksək texnologiyalar səviyyəsində davam etdirilməkdədir”- deyə, N.Cəfərov vurğulayıb.

# “Azerfon” yeni baş icraçı direktor təyin etdi

***“Azerfon” MMC-nin baş icraçı direktoru vəzifəsində dörd il müddətində çalışmış Kent Maknili yeni karyera imkanları ilə əlaqədar 31 avqust 2016-cı il tarixindən etibarən şirkətdən ayrılmaq qərarına gəlib. Kent Maknilinin şirkətə rəhbərlik etdiyi dövr ərzində “Azerfon” (“Nar”) həm gəlir, həm də abunəçi sayındakı artım nöqteyi-nəzərdən Azərbaycanın ən sürətlə inkişaf edən mobil operatoru olmuşdur. Şirkət həmçinin məmnuniyyətlə qeyd edir ki, Klaus Müller yeni baş icraçı direktor təyin olunub. Yeni təyinatına qədər cənab Klaus Müller “Deutsche Telekom” şirkətinin xarici mobil rabitə bölümündə baş əməliyyat direktoru vəzifəsini yerinə yetirərək, 12 Avropa ölkəsində aparılan əməliyyatları idarə edib.***

“Son bir neçə il ərzində “Azerfon” MMC-nin baş icraçı direktoru olaraq çalışdığım üçün çox şadam. Əldə etdiyimiz nəticələrə və şirkətin böyük inkişafa nail olmasına görə qürur hissi keçirirəm. Şirkət rəhbərliyi və kollektiv istedadlı kadrlardan ibarətdir və mən inanıram ki, Klaus Müllerin rəhbərliyi altında onlar gələcəkdə də böyük uğurlar qazanmağa davam edəcəklər”, - deyə Kent Maknili şirkətdən ayrılmasını şərh edərkən vurğulayıb.

“Azerfon” Müşahidə Şurasının sədri Georgios Koronias, öz növbəsində, bildirib: “Kent Maknili və onun rəhbərlik etdiyi komanda “Azerfon” şirkətini böyük uğurla idarə ediblər. Onun şirkətdən ayrılması xəbərini təəssüf hissi ilə qarşıladığımızı və onu aramızda görməkdən məmnun olduğumuzu bildirməklə yanaşı, cənab Makniliyə gələcək işlərində böyük uğurlar arzu edirik. “Azerfon” şirkətinə rəhbərlik etdiyi üçün ona dərin təşəkkürümüzü bildiririk”. Yeni təyinat məsələsinə də münasibət bildirən cənab Koronias, Klaus Müllerin “Azerfon” şirkətinin dinamik rəhbərliyində yeni fəsil açacağına inandığını bildirib. “Onun bir çox müxtəlif bazarlardakı təcrübəsi sayəsində əldə rəhbər tutduğu dəyərlər bizim üçün böyük önəm daşıyır. “Azerfon” Müşahidə Şurasının sədri olaraq, bizim yeni baş icraçı direktorumuz Klaus Müllerə dəstək olmağa hazıram”, - deyə Georgios Koronias sözlərinə əlavə edib.

“Azerfon” şirkətində işə başlamanın özü üçün bir şərəf olduğunu ifadə edən Klaus Müller bununla bağlı həyəcanlı olduğunu bildirib: “Kent Maknili Azərbaycanda biznesin inkişafına böyük töhfə verib. Uzunmüddətli uğur üçün inkişaf və rentabellilik çox vacibdir. Müştərilərimiz, cəmiyyət və səhmdarlarımızın ümidlərini doğrultmaq naminə şirkətimizin uğurlarının davam etdirilməsi məqsədilə hər bir kəsi əl-ələ verərək əzmlə çalışmağa dəvət edirəm”.

# Marneulidə keçirilən toyda 100 nəfər zəhərləndi



Azərbaycanlıların kompakt yaşadığı Marneuli rayonunun Sadaxlı kəndində toyda iştirak edən 400 nəfərdən təxminən 100-ü zəhərlənib. APA-nın Gürcüstan bürosunun məlumatına görə, Marneuliyə təcili olaraq Tiflis və yaxın rayonların xəstəxanalarından həkimlər cəlb olunub. Tibbi yardım üçün müraciət edənlərə müvafiq yardım göstərilir. Hazırda Marneuli xəstəxanasına 100-dək zəhərlənən xəstə yerləşdirilib. Hadisə yerinə Kvemo Kartli qubernatoru Paata Xizanaşvili və Marneuli bələdiyyəsinin sədri Nəbi Abdullayev gəliblər. Kütləvi zəhərlənmənin səbəbi barədə hələlik məlumat verilmir. Faktla bağlı araşdırma aparılır.

# YAP Binəqədi rayon təşkilatında "Tarixin dərin izləri" adlı layihənin təqdimat mərasimi olub

***Yeni Azərbaycan Partiyası Binəqədi rayon təşkilatının inzibati binasında Azərbaycan Respublikasının Prezidenti yanında Gənclər Fondunun VIII Qrant Müsabiqəsi çərçivəsində qalib olmuş, YAP Binəqədi rayon təşkilatının gənc fəalı Aytəkin Bayramovanın rəhbəri olduğu "Tarixin dərin izləri" adlı layihənin açılış mərasimi keçirilib.***



Tədbirdə layihə rəhbəri A.Bayramova çıxış edərək, tədbirin keçirilməsində göstərdikləri köməyə görə aidiyyatı qurumlara öz təşəkkürünü bildirib. O, layihənin məqsəd və vəzifələri haqqında ətraflı məlumat verib.

Daha sonra YAP Binəqədi rayon təşkilatı gənclər birliyinin sədri Mahmud Məmmədzadə çıxış edərək Binəqədi rayonunda gənclərlə iş sahəsində həyata keçirilən çoxsaylı layihələr haqqında geniş məlumat verib. O, həmçinin, Gənclər Fondunun gənclərin ideyalarının reallaşdırılmasında, onların şəxsi inkişafında oynadığı aparıcı roldan danışaraq, Binəqədi gənclərinin bu imkanlardan uğurla yararlandığını xüsusi vurğulayıb.

Layihə çərçivəsində YAP Binəqədi rayon təşkilatının gənclər birliyinin sədri Mahmud Məmmədzadə, təşkilatın baş təlimatçısı Kubra Əliyarlı, Binəqədi rayon Gənclər və İdman İdarəsinin baş məsləhətçisi Rüfət Əhmədov, layihə rəhbəri Aytəkin Bayramova və layihə iştirakçıları Qobustan Milli Tarix-Bədii Qoruğuna və Qobustan Muzeyinə ekskursiyaya gediblər. Orada iştirakçılara Qobustan qoruğu və muzeyi haqqında ətraflı məlumat verilib.

Qeyd edək ki, "Tarixin dərin izləri" adlı layihə çərçivəsində gənclər arasında inşa müsabiqəsi keçiriləcək və layihənin bağlanış tədbirində qalib gənclərin mükafatlandırılması mərasimi keçiriləcək.

***ZÜMRÜD***

# İtaliyada zəlzələ nəticəsində həlak olanların xatirəsi bu ölkənin Azərbaycandakı səfirliyində anılıb



İtaliyada zəlzələ nəticəsində çoxsaylı insanın həlak olması ilə əlaqədar avqustun 30-da bu ölkənin Azərbaycandakı səfirliyində xatirə kitabı açılıb. Azərbaycanda fəaliyyət göstərən diplomatik korpusun, ictimaiyyətin nümayəndələri səfirliyə gələrək İtaliya xalqına başsağlığı verib, xatirə kitabına ürək sözlərini yazıblar. Xatırladaq ki, avqustun 24-də gecə İtaliyanın mərkəzində altı bal gücündə zəlzələ baş verib. Zəlzələ nəticəsində 300-ə yaxın insan həlak olub.

# Dənizkənarı Milli Parkda caz konserti keçiriləcək




Sentyabrın 3-də Dənizkənarı Milli Parkda, açıq səma altında "Barrel Jazz Nights" adlı caz konserti keçiriləcək. Konsertdə azərbaycanlı və amerikalı musiqiçilər tərəfindən caz-muğam janrında musiqi proqramı təqdim olunacaq. Konsert proqramında tanınmış ifaçılar Rodolfo Perez, Ronen İtzik, İsmael De La Rosa, Ruslan Ağababayev, Şəhriyar İmanov, Kamran Kərimov və Ələfsər Rəhimov çıxış edəcəklər.

# Elinar Vardanyan: "Güc strukturlarını insan hüquqlarını pozmamağa çağırmışam"



Ermənistan parlamentinin ictimai əlaqələr və insan hüquqları ilə bağlı komissiyasının sədri Elinar Vardanyan İrəvanda baş verən məlum iyul hadisələrindən sonra onlarla Ermənistan vətəndaşının hüquqlarının pozulduğunu deyib. SİA-nın məlumatına görə, 1in.am saytına açıqlama verən Vardanyan iyul hadisələrində atılması lazım olan addımlardan və parlamentin bu məsələdəki passivliyindən danışaraq bildirib ki, bəzi deputatlardan fərqli olaraq o, xalqın yanında olub: "Qeyd edilənlərlə yanaşı, mən onlarla hüququ pozulmuş vətəndaşların işləri ilə məşğul olmuşam və güc strukturlarını insan hüquqlarını pozmamağa çağırmışam". Vardanyanın sözlərinə görə, iyul hadisələrində insan hüquqlarının kifayət qədər kobudcasına pozulması hallarına rast gəlinib. Parlament təmsilçisi hesab edir ki, insan hüquqlarının müdafiəsindən geri çəkilmək Ermənistanın dünyadakı nüfuzuna təsir edib.

***Rövşən Nurəddinoğlu***

# Erməni baş redaktor: "Qarabağda mavi yanacağın qiyməti Ermənistandan iki dəfə bahadır"



"Dağlıq Qarabağda "konstitusiya dəyişiklikləri" sünidir və "artsax"ın daha ciddi problemləri var".SİA xəbər verir ki, bu barədə "Analitikon" jurnalının baş redaktoru Geqam Baqdasaryan "Dağlıq Qarabağda "konstitusiya dəyişiklikləri" - problemlər və perspektivlər" mövzusunda qatıldığı müzakirələrdə deyib. Erməni baş redaktorun sözlərinə görə, Qarabağda "konstitusiya dəyişiklikləri" burada yaşanan problemlərin həlli üçün açar rolu oynamır. "Qarabağın daha böyük çağırışları var" -deyə qeyd edən Baqdasaryan mövcud problemləri qabardıb: "Biz təhlükəsizlikdən danışır, daimi olaraq silahlanma məsələsinə toxunuruq. Lakin ən böyük təhlükəsizlik qarantiyası "torpağında" yaşayan insanın özüdür. Qarabağda mavi yanacağın qiyməti Ermənistandan iki dəfə bahadır. Bütün sahələrdə inhisarlar mövcuddur. Qarabağda yalnız bir telekanal var. O cümlədən, hər bir sahədə prüalizmlə bağlı problemlər yaşanır"-deyə erməni baş redaktor həyacanlı şəkildə vurğulayıb.



# "Gənc Marketoloqlar Məktəbi" layihəsinə start verilib




Azərbaycan Respublikası Prezidenti yanında Gənclər Fondunun maliyyə, Yeni Azərbaycan Partiyası Gənclər Birliyinin təşkilati dəstəyi ilə "Gənc Marketoloqlar Məktəbi" layihəsinə start verilib.

Tədbiri giriş sözü ilə açan YAP Gənclər Birliyinin koordinatoru Elmar Məmmədov gənclərə marketinqin əhəmiyyəti barədə məlumat verib. Sonra isə layihə rəhbəri Mehdili Mehdi layihə haqqında ümumi məlumat verib. Layihənin məqsədini və layihə ərzində keçiriləcək təlimlərin mövzularını iştirakçıların diqqətinə çatdırıb. Daha sonra təlimçi Arzu Qafarlı marketinqin hazırkı dövrdəki əhəmiyyətindən danışmış və istirakçılara "Ümumi Marketinq" anlayışı haqqında ilk təlimi keçmişdir.Təlimdə 30-dan artıq tələbə və mətbuat nümayəndəsi iştirak etmişdir.

# Azərbaycan diasporunun üzvləri Çanaqqala məzarlığını ziyarət edib

İstanbul-Türkiyə-Azərbaycan Dayanışma və Kültür Dərnəyinin (İSTAD) üzvləri Çanaqqala məzarlığını ziyarət edib. Diasporla İş üzrə Dövlət Komitəsindən "SƏS" qəzetinə verilən məlumata istinadən, ziyarət zamanı heyət adından açıqlama verən təşkilatın sədri Səfər Qaraqoyunlu sözlərinə "Nə mutlu türkəm deyənə" ifadəsi ilə başlayıb və hər bir türkün şəhidlərin uyuduğu bu məzarlığı ziyarət etməsinin gərəkliyini qeyd edib.

S.Qaraqoyunlu Çanaqqalanın şərəflə qazanılan zəfərin, vətən torpaqlarını qorumaq üçün ayağa qalxan bir millətin azad yaşamaq eşqinin ibrətverici nümunəsi olduğunu vurğulayıb: "Tarixən müstəqil və azad yaşamağa alışmış türk milləti bu savaşda canı və qanı ilə torpağı uğrunda mübarizə apararaq qələbə qazanıb".

Çanaqqala zəfərinin tarixdə Türkiyə və türk dünyası üçün bir dönüş nöqtəsi olduğunu deyən S.Qaraqoyunlu savaşda şəhid olan Azərbaycan əsgərlərindən də danışıb. Bildirib ki, qeyri-rəsmi rəqəmlərə görə, Qafqazdan və Azərbaycandan 18 min insan könüllü şəkildə Çanaqqala döyüşlərinə qatılıb və rəsmi statistikaya əsasən, onlardan 3 mini şəhid olub.

Qeyd edək ki, 30 avqust Türkiyədə Zəfər bayramı kimi qeyd olunur. 1922-ci ildə İstiqlal savaşı gedən Türkiyədə Mustafa Kamal Atatürkün başçılıq etdiyi ordu düşmən qüvvələrini məğlub edib və həmin gün tarixə Çanaqqala zəfəri kimi yazılıb. Bu müharəbədə 253 mini türk, 251 mini isə qarşı tərəfin - ittifaq ordusunun əsgəri olmaqla, ümumilikdə, 504 min insan həlak olub.

***NƏZAKƏT***

# İtaliya XİN rəhbəri noyabrda Bakıya gələcək



İtaliyanın xarici işlər naziri Paolo Centiloni noyabrda Azərbaycana rəsmi səfər edəcək. SİA-nın məlumatına görə, bu barədə jurnalistlərə İtaliyanın Azərbaycandakı səfiri Campaolo Kutilio deyib. O bildirib ki, hazırda rəsmi səfərin dəqiq tarixi və proqramı dəqiqləşdirilir.

# Əli Kərimlidən "ümumcəbhəçi lideri" də çıxmaz

*Satqınlıq, xəyanətkarlıq, fərarilik Əli Kərimlinin boyuna biçilmiş həyat yoludur*



***Deyirlər ki, mətbuat əhlinin ömrü qısa olur. Bir də niyə olmasın. Qələmin qədrini bilməyənlər böhtan-şər yazırlarsa, o zaman əsəbilər tarım olur, ürək də öz işini görür. Bu günlərdə "Ümid" partiyasının keçmiş funksioneri Nəsimi Məmmədlinin AXCP sədri Ə.Kərimlini cəbhəçilərin lideri adlandırması məni düşündürdü. Bu fikir müxalif düşərgəni qarşı-qarşıya qoyub. AXCP fəalları status müəllifini qınayanlara aşağılayıcı tonda cavablar verirlər.***

### Görünür, sabiq "Ümid" funksioneri satılanla satılmaq istəyənləri belə "dəyərləndirir"

Bir həqiqəti anlamaq lazımdır ki, insan hansı cəmiyyətdə yaşamağından, hansı zümrəyə, hansı cəbhəyə mənsub olmağından asılı olmayaraq, öz ləyaqətini qorumağı bacarmalıdır. Heç də siyasətdə satqın olmaq, mənsub olduğu partiyanı dəyişmək deyil. Siyasətdə satqın olmaq dövləti, xalqını və ətrafını pula satmaqdı. Müxalifət düşərgəsinə satqınçılığı AXCP sədri Ə.Kərimli gətirib.

"Yurd" şefi kimi tanınan bu fərd barədə yüzlərlə mənfi rəylər, faktlar, sübutlu materiallar var. Ə.Kərimli dedikdə, ilk ağla gələn fikir satqın və xəyanətkardır. Ə.Kərimlinin xəyanətkar, satqın "siyasi fəaliyyəti" öz şəxsi maraqları üzərində formalaşıb və belə də davam etməkdədir. AXCP-nin mərhum sədri Əbülfəz Elçibəydən tutmuş, indiki vaxta qədər çıxdaş etdiyi adamların hər biri elə bu "siyasi fəaliyyətin" qurbanına çevriliblər desək, yanılmarıq. Fakt budur ki, dünən də, bu gün də, sabah da AXCP-də Ə.Kərimlini tərifləməyən, fərqli fikir ortaya qoyan cəbhəçilər dərhal xəyanətkar elan olunur, onlara qarşı sosial şəbəkələrdə şantaj, təzyiq kampaniyaları aparılır, ölümlə təhdid edilirlər. Belə bir bənzərsiz "siyasət" nəticəsində AXCP-nin sıralarını daha kimlər tərk etmədilər ki?

Bu adam illərdir müxtəlif vasitələrdən istifadə edib, "ana müxalifət" adı altında müxalifətin "vahid lideri" olmağa cəhd göstərir. Əqidə dostlarını satmaqla, xəyanət etməklə, üzərinə qara yaxmaqla, şərlə, böhtanla. Fəqət, bu cəhdlərin hər biri uğursuzluğa düçar olduqca Kərimli yeni bir oyunla meydana atılır.

Zaman dəyişsə də, Ə.Kərimlinin satqınlığı və xəyanətkarlığı dəyişmədi.

### Satqınlıq, xəyanət - Əli Kərimlinin biçilmiş həyat yoludur

N.Məmmədli bilməlidir ki, bu gün özünü Azərbaycan cəmiyyətinə "siyasətçi" kimi sırımaq, "qorxmaz lider" kimi tanıtmaq istəyən satqın və xəyanətkar Ə.Kərimlinin qazandığı bu ikinci "adlar" hər zaman onun davranışında və xarakterində özünü büruzə verib. Ə.Kərimlidən "ümumcəbhəçi lideri" də çıxmaz, çünki satqınlıq, xəyanətkarlıq və fərarilik Ə.Kərimlinin boyuna biçilmiş həyat yoludur.

Dünyada elə tarixi şəxsiyyətlər mövcud olub ki, illər, qərinələr, hətta əsrlər keçsə belə, onların insanlar üçün gördükləri işlər bu gün də öz səmərəsini verir. Hətta həmin şəxsiyyətlər haqqında epopeyalar, böyük-böyük əsərlər yazılır. Ancaq elə kəslər də mövcuddur ki, onların adları gələndə, lənət və nifrinlər "epopeyasından" başqa heç nə eşitmək olmur. Kimdir onlar, insan, yoxsa iblis? Bu sualın cavabını axtarmaq lazım deyil. AXCP sədri Ə.Kərimlinin "siyasi karyerasına" nəzər salsaq, onun insan, yoxsa iblis olması haqqında illər öncə verilmiş suala cavab tapa bilərik...

***Rəfiqə HÜSEYNOVA***

# Gülənçilərlə əlaqələri müxalifəti çətin duruma salıb

*Mütəllim Rəhimli: "Əli Kərimlinin hay-küy qaldırması qorxudan yaranır"*



***Terrorçu təşkilat olan "Gülən hərəkatı" ilə əlaqələrinin ifşa olunmasından vahiməyə düşən AXCP sədri Ə.Kərimli hakimiyyətin onu həbs etməyə hazırlaşdığı barədə cəfəng iddialarla çıxış edir. Təbii ki, bu cür fikirlərin arxasında xarici maraqlı qüvvələrin diqqətini özünə cəlb etməyin dayandığı şübhəsizdir.***

Ədalət partiyasının sədr müavini Mütəllim Rəhimli də o fikirdədir ki, Ə.Kərimlinin hay-küy qaldırması qorxudan yaranır. M.Rəhimli "SƏS" qəzetinə açıqlamasında bildirdi ki, AXCP sədri Ə. Kərimlinin bu cür iddia ilə çıxış etməsi heç də yaxşı hal deyil: "Təəssüflər olsun ki, biz dəfələrlə şahidi olmuşuq ki, bir çox müxalifət liderləri xarici ölkə səfirlikləri ilə söhbətlərində və yaxud da xaricə səfərlərində Azərbaycanın əleyhinə çox kəskin fikirlər səsləndirirlər. Azərbaycanlı ola-ola öz ölkəsi haqqında belə fikirlərin səsləndirilməsi düşmən dəyirmanına su tökmək kimi bir şeydir. Bununla da, müxalifəti təmsil edən həmin şəxslər hesab edirlər ki, guya onlar belə fikirlər səsləndirməklə hakimiyyəti nüfuzdan sala bilərlər. Əslində isə, bu cür hərəkətlər onları daha da nüfuzdan salır. Demək olar ki, hər zaman müxalifəti təmsil edən bu şəxslər belə hərəkətləri ilə xarici maraqlı qüvvələrin diqqətini özünə cəlb etmək məqsədi dayanır. Belə yol tutanlar qınağa, ittihama layiqdirlər".

"Nəyə görə, Ə.Kərimli taleyükülü tədbirlər ərəfəsi şoular qurmağa cəhdlər göstərir" sualına cavab olaraq M.Rəhimli bildirdi ki, ümumiyyətlə, müxalifət öz siyasətini elə qurmalıdır ki, burada kimsə təhqir olunmasın və yaxud da Azərbaycan dövlətinin və cəmiyyətinin mənafelərinə zərər dəyməsin. Yəni müxalifət elə siyasət aparmalıdır ki, onlar cəmiyyətin gözündən düşməsinlər. Əksinə, çalışırlar ki, milli və dövlətçilik maraqlarına xidmət edə biləcək siyasət aparmaqla özlərinə müsbət imic qazandırsınlar. Ancaq hələ ki, Azərbaycanın siyasi arenasında belə bir müxalifət təmsilçisi mövcud deyil. Reallığı özündə əks etdirməyən məsələlərlə onlar heç vaxt nə isə əldə edə bilməyəcəklər. Müxalifətin bu cür yersiz hərəkətləri cəmiyyət tərəfindən yaxşı qarşılanmır, əksinə onları daha da gözdən salır. Ümumiyyətlə, müxalifət təmsilçilərinin dövlətmizə və millətmizə qarşı aqressiya nümayiş etdirməsi düzgün deyil. Bu yolla onların siyasi proseslərdə uğur qazanması mümkünsüzdür. Yaxşı olardı ki, müxalifət belə hərəkətlərə əl atmaqdan uzaq olsun".

***GÜLYANƏ***

# Yayın sonuncu günündə bəzi ərazilərdə yağış yağacaq



***Azərbaycanda avqustun 31-nə gözlənilən hava proqnozu açıqlanıb. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentindən AZƏRTAC-a verilən məlumata görə, Bakıda və Abşeron yarımadasında havanın dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir.***

Lakin gecə və səhər yarımadanın bəzi yerlərində qısamüddətli yağış yağacağı ehtimalı var. Şimal küləyi gündüz mülayim cənub-şərq küləyi ilə əvəz olunacaq. Gecə 20-25° isti, gündüz 29-34° isti olacaq. Dəniz suyunun temperaturu Abşeron çimərliklərində - Sumqayıt, Novxanı, Pirşağı, Nardaran, Bilgəh, Zağulbada 24-25°, Buzovna, Mərdəkan, Şüvəlanda 26-27°, Türkan, Hövsan, Sahil və Şıxda 27-28° isti təşkil edəcək. Tibbi-meteoroloji proqnoza görə, avqustun 31-də Abşeron yarımadasında zəif küləklərin üstünlüyü fonunda bəzi saatlarda havada rütubətliyin nisbətən çox olması bəzi meteohəssas insanlarda narahatlıq hissi yarada bilər.

Naxçıvan Muxtar Respublikasında hava əsasən yağmursuz keçəcək. Lakin axşam bəzi dağlıq ərazilərdə şimşək çaxacağı, qısamüddətli yağış yağacağı ehtimalı var. Şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 17-22° isti, gündüz 33-38° isti olacağı gözlənilir.

Yuxarı Qarabağ: Xankəndi, Şuşa, Xocalı, həmçinin Xocavənd, Qubadlı, Zəngilan, Laçın, Kəlbəcər və Daşkəsən-Gədəbəy rayonlarında gecə və axşam bəzi yerlərdə şimşək çaxacağı, qısamüddətli yağış yağacağı, gündüz havanın əsasən yağmursuz keçəcəyi gözlənilir. Ayrı-ayrı yerlərdə arabir güclənən şərq küləyi əsəcək. Havanın temperaturu gecə 13-18° isti, gündüz 22-27° isti təşkil edəcək.

Qazax, Gəncə, Goranboy, Tərtər, Ağdam, Füzuli və Cəbrayıl rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin gecə və axşam bəzi yerlərdə şimşək çaxacağı, qısamüddətli yağış yağacağı ehtimalı var. Ayrı-ayrı yerlərdə arabir güclənən şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 18-23° isti, gündüz 29-34° isti olacağı gözlənilir.

Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, Qəbələ, İsmayıllı, Ağsu, Şamaxı, Siyəzən, Şabran, Xızı, Quba, Xaçmaz və Qusar rayonlarında gecə və axşam bəzi yerlərdə şimşək çaxacağı, qısamüddətli yağış yağacağı, gündüz havanın əsasən yağmursuz keçəcəyi gözlənilir. Ayrı-ayrı yerlərdə arabir güclənən şərq küləyi əsəcək. Havanın temperaturu gecə 16-21° isti, gündüz 26-31° isti, dağlarda gecə 11-16° isti, gündüz 20-25° isti təşkil edəcək.

Mərkəzi Aran: Mingəçevir, Yevlax, Göyçay, Ağdaş, Kürdəmir, İmişli, Ağcabədi, Beyləqan, Sabirabad, Biləsuvar, Saatlı, Şirvan, Hacıqabul, Salyan və Neftçala rayonlarında hava əsasən yağmursuz keçəcək. Ayrı-ayrı yerlərdə arabir güclənən şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 19-24° isti, gündüz 32-37° isti olacağı gözlənilir.

Masallı, Yardımlı, Lerik, Lənkəran və Astara rayonlarında hava əsasən yağmursuz keçəcək. Şərq küləyi əsəcək. Gecə 21-24° isti, gündüz 30-35° isti, dağlarda gecə 14-19° isti, gündüz 25-30° isti olacaq.

## Daxili orqanından narkotik tapıldı

Astara Gömrük İdarəsinin əməkdaşları əməliyyat məlumatı əsasında Astara Sərhəd Nəzarət Məntəqəsinin əməkdaşları ilə birgə əməliyyat tədbiri keçiriblər. Dövlət Gömrük Komitəsinin mətbuat xidmətindən SİA-ya verilən məlumata görə, əməliyyat nəticəsində, İrandan Azərbaycana piyada gələn Azərbaycan vətəndaşı saxlanılaraq üzərində şəxsi yoxlama aparılıb. Yoxlama zamanı həmin şəxsin daxili orqanından narkotik vasitələr - xalis çəkisi 45,719 qram olan heroin və 5 ədəd həb şəklində olmaqla, təsiredici maddəsinin ümumi çəkisi 0,1 qram təşkil edən "Metadone" aşkar olunub. Astara Gömrük İdarəsinin əməkdaşları digər əməliyyat məlumatı əsasında, Azərbaycandan İrana piyada gedən Azərbaycan vətəndaşının üzərində şəxsi yoxlama apararkən isə həmin şəxsin gömrük nəzarətindən gizlətdiyi və ümumi çəkisi 618,880 qram olan qızıl-zinət əşyaları və 0,984 karat qiymətli daşlar aşkar ediblər. Hər iki faktla bağlı araşdırma aparılır.

## Srağagün baş vermiş yol-nəqliyyat hadisələri nəticəsində üç nəfər ölüb



Respublikanın daxili işlər orqanları tərəfindən srağagün 74 cinayət faktı qeydə alınıb. Onların 21-nin üstü "isti izlər"lə açılıb. Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Cinayət Məcəlləsinin müxtəlif maddələri ilə axtarılan 17 nəfər tutularaq istintaq orqanlarına təhvil verilib. Respublikanın avtomobil yollarında səkkiz yol-nəqliyyat hadisəsi baş verib. Nəticədə 3 nəfər ölüb, 11 nəfər isə yaralanıb. Daxili işlər orqanları əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində narkotiklə əlaqəli 9, qanunsuz saxlanılan silah-sursatla bağlı 1 fakt müəyyənləşdirilib. Cinayət törətdiklərinə görə 35 nəfər tutulub.

# Erməni vəhşiliyi bəşəriyyətə qarşı cinayətin ən dəhşətli növüdür

***Erməni işgəncə növləri dünyada analoqu olmayan, heç fəaliyyətlərində ağlına gəlməyən ən dəhşətli cinayət növlərindəndir.***

Siyasi elmlər üzrə fəlsəfə doktoru, dosent Zaur Əliyevin "Qarabağ: diaspor, soyqırım, terror" kitabındakı faktları oxuduqca adam şoka düşür. Kitabda oxuyuruq: "Bu yazını hazırlamaq olduqca çətin idi. Müharibə dəhşətləri görmüş, Xocalı soyqırımı qurbanlarını öz gözləri ilə görən bir şəxs olaraq hər cümləni yazdıqca, o illəri yaşayırdım. Tam olaraq yazıda erməni vəhşətini ortaya qoymaq olduqca çətin idi. Yazıda qeyd edilənlər şahidlərin ifadəsi, MTN-nin məlumatları, "Əsir və İtkin Düşmüş, Girov Götürülmüş Vətəndaşlarla Əlaqədar Dövlət Komissiyası"nın hesabatları, müharibə iştirakçıları, erməni müəlliflərinin yazdıqlarına əsaslanır. Bəzi şahidlərin və mənbələrin xahişi ilə onların adı tam olaraq açıqlanmır.

Yazıda ermənilərin əsir düşən və girovluqda olan azərbaycanlılara qarşı törətdikləri işgəncələri ardıcıllıqla sizlərə təqdim edirik. Bu günə qədər dünya tarixində heç bir insana və millətə qarşı edilməyən işgəncələr bizim xalqın yaşlı, qoca, uşaq, qadın və cavanlarının başlarına gətirilib. Onların yaşadıqları əzab və çəkdikləri əziyyətləri sizin də oxumağınız və düşməni tanımağınız üçün bunu yazmalı oldum.

Dəyənək, armatur və digər dəmir alətlərin əsirlərin anus dəliyinə yeridilməsi: Bu vəhşilik, əsasən, Şuşa türməsində saxlanılan əsgərlərin başlarına gətirilirdi. Misal üçün, bu gün Ermənistanda mühüm dövlət postlarından birini tutan Samvel Babayanın "sevimli" işgəncə növüdür. Bakı şəhərindən olan Rauf adlı şəxsə qarşı edilən bu vəhşilik əsrilikdən azad edildikdən sonra onun bağırsaqlarından on santimetr kəsilərək götürülməsinə səbəb olmuşdur.

Hamilə qadınların qarınlarının cırılaraq uşaqların ordan çıxarılması: ermənilər, əsasən, Xocalı şəhərindən əsir düşən hamilə qadınların qarınlarını əsgər bıçağı ilə cıraraq, onun bətnindəki uşağı itlərə yem edir, qadının daxilinə giliz, diri pişik, ilan, qurbağa, siçan və sairə doldurur, yaranı tikir və qadının əzablar içərisində ölməsinə baxırdılar.

Siçovul yuvası. Əsirin əl-ayağını bağlayıb, dəmir vedrəyə oturdub, bağlayır və içərisinə diri siçovul qoyurlar. Vedrənin arxasını deşib, siçovlun keçə biləcəyi dəlik saxlayır və əsiri həmin dəliyin üstə saxlayırlar. Sonra vedrəni qızdırırlar və içəridə istidən əriyən siçovul əsirin anus dəliyinə girərək, onun daxili orqanlarını yeyir və çölə çıxır. Bu cəza növünü, əsasən, Suriya və Livan erməniləri verirlər.

Qulağa güllə. Əsirin əllərin-qolların ağaca bağlayır və qulağını iplə dartırlar. Bir güllə ilə qulağı dağıdan erməniyə pul mükafatı verirlər.

Odda yandırmaq. Bir neçə əsiri, qollarından hündürdən asaraq, ayaqlarının altında tonqal qalamaq, isti suda diri-diri bişirmək, quyuya ataraq üstünə dizel, yaxud benzin tökərək yandırmaq, dəmir boruya salıb oda atmaq, taxtaya bağlayıb od vurmaq və sairə formada yandırmaq.

Qurban kəsmək. Ermənilər əsir düşən azərbaycanlıları bayramlarında, ölən əsgərlərinin və yaxınlarının məzarlarının üstündə qurban kəsirdilər. İlk olaraq, dəyənək və zopa ilə döyüb, sonra qollarını yana açaraq əvvəl birini, sonra da o birini balta ilə kəsib, sinəsini yararaq, ürəyini çıxarırdılar. Xəncər və balta ilə birdəfəyə əsirin boynun vurmaqdan mərcə girənlər, tam boynu kəsilməyən əsirlərin xırıltı ilə ölmələrinə baxırdılar.

Mismarlamaq. Əsirlərin əllərini və ayaqlarını taxta parçasına mismarlayır, başlarına mıx vururlar. Ən "sevimli" oyunları isə belə idi: əsirin əllərini ağaca bağlayır və pnevmotik mismar vuran aparatla onun beynini, gözünü və ürəyini nişan alırdılar.

Sidik və nəcis yedirtmək. Ermənilər əsirləri ac və susuz saxlayır və onları sidiklərindən içməyə məcbur edirdilər. Ac qalanların qarşısında nəcislərini ifraz edib, əsirlərə yedirdirdilər.

Bayraq öpmə. Erməni və Azərbaycan bayrağını asır, günlərlə ac qalan əsirləri öz bayraqlarını öpməyə və Azərbaycan bayrağına tüpürməyə məcbur edirdilər. Əməl etməyəni döyür, qolunu-qıçını sındırırdılar.

Şüşə və mıx yemə. Əsirləri ac saxlayır və onlara şüşə, mıx, digər dəmir parçaları yeməyə məcbur edirdilər. Sağ qalana yemək verir, öləni isə ayaqyoluna atırdılar.

İt əvəzinə saxlamaq. Əsirləri imkanlı ermənilər alıb öz bağlarında, evlərində it damında saxlayır, boğazlarına zəncir taxır və it kimi durmağa və hürməyə məcbur edirdilər. Bəzən "it döyüşü" keçirir və mərcə girirdilər. Etiraz edəni döyüb, oda atırdılar.

İtlərə yem etmək. Əsirləri sıraya düzür, hasara çəkilən əraziyə salır və təlim keçmiş itləri onların üstünə buraxırdılar. İtlər əsirləri parça-parça edirdi.

Qulaqdan qumar. Əsir düşənləri sırya düzür və onların qulaqlarını kəsərək, qumar oynayırdılar. Daha çox qulaq "qazanan" istədiyi məbləği almaq hüququ əldə edirdi.

Diş çıxarma. Onların qızıl dişini kəlbətinlə dartıb çıxarır, yaxud da avtomatın qundağı ilə döyərək sındırırdılar. Əsirləri Azərbaycan meyitlərinin ağzından qızıl dişlərini çıxartmağa və qəbrləri açdıraraq ölmüş insanların ağızlarındakı qızıl dişləri onlara gətirməyə məcbur edirdilər.

İynə. Əsir düşənlərin bədənlərinə benzin, dizel, spirt və digər naməlum tərkibli məhlular vuraraq, onları şikəst edirdilər.

Orqan satışı. Əsir düşənlərin daxili orqanlarını əməliyyat edir və xarici ölkələrə satışını həyata keçirirdilər.

Ölülərə həqarət. Ermənilər ölən əsirlərin meyitlərini ayaqyoluna atır, donuzlara yem edir və hətta onların ətini bişirdib, əsirlərə yedizdirirdilər.

Kəndirlə bağlama. Əsirin ayaq hissəsi ilə boyun hissəsini iki qatlayaraq, bağlayır və əsir iki qatlanmış halda 24 saat durmağa məcbur edilirdi.

Qutuya salmaq. Əsirlər xırda sandıq və qutulara salınır, orada 3 gün qalmağa məcbur edilirdi.

Yaralılara əzablar. Əsir düşən yaralı əsirlərin yarası üzərinə kislota, benzin, qaynanmış yağ və sairə tökürdülər. Ağrı törətmək və ya təcrübə məqsədilə cərrahiyyə əməliyyatı aparırdılar.

Göz çıxartma. Qızdırılmış əsgər bıçağı ilə əsirlərin gözləri çıxarılır və itlərə yem verilirdi.

Qorxu. Qadın və uşaqların üzərinə ilanlar, hörümçəklər, siçanlar və sairə heyvan və həşəratlar salır, onların qorxu və qışqırtılarına baxır əylənirdilər.

Dırnaqların çıxarılması və dərinin soyulması. Əsirləri sıraya düzür və dırnaqlarını dartıb qopardırdılar. Sonra dərilərini ülgüclə soyurdular.

Sürülmə. Əsirləri maşınların arxasına bağlayır və şəhər boyu sürüyürdülər. Bəzən tankın qabağına lüt Azərbaycan qızı bağlayır, onun əlinə erməni bayrağı verirdilər.

Asmaq. Əsirin qaldırıcı kranla boğazından asır, bir az saxlayıb, yerə endirir və bu formada gün ərzində "əylənirdilər".

Çöp. əsirlər yatmasın deyə göz qapaqlarına kibrit qoyurdular və bu formada gözlərini açıq saxlamağa məcbur edilirdilər.

Danışmaq qadağası. Əsirlərin bir-biri ilə danışmaması üçün dillərini iplə bağlayırdılar. Əsir gecəni dili dəmirə bağlı halda qalmağa məcbur olurdu.

Kərpiç. Qadının döş uclarına və döşlərinə iplə kərpiç bağlayır və beləcə bir neçə saat dayanmağa məcbur edilirdi.

Saçlarından asılmaq. Qadın və qızları saçlarından otağın ortasından lüt formada asır və onun bədəninə tüpürürdülər.

Kişilikdən məhrum etmə. Kişilərin cinsiyyət üzvündən ipə bağlanmış daş asır və beləcə bir neçə saat qalmağa məcbur edilirdi.

Baş presi. Əsirin çənəsi düz bir yerə qoyulur və başının üzərindən dəmir bir kəmər keçirilir. Yavaş-yavaş sıxışdırılan əsirin əvvəl dişləri qırılır, ardından da bütün baş əzilir.

Bu siyahını artırmaq da olar. İşgəncə Qurbanlarının Müdafiəsi Təşkilatı hazırda dünyada daha çox yayılmış və müxtəlif vaxtlarda bir neçə dəfə tətbiq edilmiş işgəncə növlərinin siyahısını tərtib edib. Ermənilərin azərbaycanlılara qarşı etdikləri siyahıdakılardan iki dəfə çoxdur. Əsirlikdə olan Azərbaycan vətəndaşları dəhşətli işgəncələr və mənəvi əzablara məruz qalıblar. Əsirlikdən azad olunmuş vətəndaşlarımızın şahid olduqları hadisələr dözülməz və danılmazdır".




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

Hamıya məlumdur ki, 1975-ci ildə yaradılmış "ASALA" terrorçu təşkilatlarının strukturu erməni terrorçu təşkilatlarının ümumi təcrübəsinə müvafiq tərtib edilmişdir. "ASALA" hesab edir ki, "erməni torpaqlarının azad edilməsinin bir yolu var - zorakılıq". Bu təşkilatın aktivlərini onların terrorçularının qurbanlarının kim olması maraqlandırmır. Bunlar kişi də ola bilər, qadın da, uşaq da, qoca da. Türk də, qeyri-türk də. Düşmən onların əsas nişangahıdır və o, məhv olmalıdır. Təbii ki, bu məsələdə prioritet mövqe türklərə aiddir.

"ASALA"-nın təşkilatçısı və rəhbəri Akop Akopyan öz karyerasını 1972-ci ildə Münhendə Olimpiya Oyunları zamanı İsrail idmançılarına qarşı törətdiyi vəhşi qırğınla başlayıb. "ASALA"-nın dünyada fəaliyyət göstərən müxtəlif terrorçu təşkilatları ilə əlbir törətdiyi terror aktlarının sayı-hesabı yoxdur. Bu sırada türk vətəndaşlarına qarşı törədilən vəhşiliklərin xüsusi çəkisi olduqca böyükdür.

Orlidə (Fransa) türk təyyarəsinə basqından sonra 8 nəfər (1 nəfər Amerika vətəndaşı) öldürülmüş, 60 nəfər yaralanmışdır. Erməni terrorçularının vəhşilikləri Birləşmiş Ştatların güclü reaksiyasına səbəb oldu. Amerikanın o zamankı prezidenti Reyqan demişdi: "Heç bir real və ya uydurulmuş inciklik bu gün baş verən dəhşətə bəraət qazandıra bilməz. Yaxınlarda mən digər ölkə başçıları ilə də qeyri-insani vəhşiliklərin sivil cəmiyyətdən kənarlaşdırılması üçün tədbirlərin görülməsi haqda danışıqlar aparacağam".

Təəssüflər olsun ki, Amerika-erməni və Avropa - erməni təşkilatları ya bu terror aktlarını açıq şəkildə müdafiə etdilər və ya bu vəhşiliklərə bu və ya digər şəkildə bəraət qazandırmağa çalışırlar.

Los-Ancelesdə dərc olunan həftəlik "Asbares" qəzeti türk diplomatlarının vəhşiliklə qətlə yetirilməsini təqdir edir və hesab edir ki, onlar erməni soyqırımı faktını inkar etdikləri üçün haqlı olaraq terrorçuların hücumlarına məruz qalırlar. "ASALA" Qərbi Avropada Yaxın Şərq terrorçu təşkilatları ilə birgə bir sıra terror əməliyyatları həyata keçirmişlər.

Ermənilər birbaşa və aşkar surətdə "Hərbi əsirlər ilə rəftar haqqında" 1949-cu il 12 avqust tarixli Cenevrə Konvensiyasını, BMT Baş Assambleyasının "İtkin düşmüş şəxslər" adlı 18 dekabr 2002-ci il tarixli qətnaməsini, İnsan hüquqları haqqında Ümumi Bəyannamənin 5-ci maddəsinin, həm də Mülki və Siyasi Hüquqlar haqqında Beynəlxalq Paktın 7-ci maddəsini, Birləşmiş Millətlər Təşkilatı İşgəncələr və digər qəddar, qeyri-insani yaxud ləyaqəti alçaldan rəftar və cəza növlərinə qarşı Konvensiyanı və sairəni pozmuşlar.

**Vahid ÖMƏROV,**
***fəlsəfə üzrə fəlsəfə doktoru***

# səs

Son səhifə 31 avqust


## Alimlər dünyada ən sürətli fləş kartlar yaradıb



Novosibirsk alimləri tərəfindən hazırlanan gələcəyin məlumat saxlama daşıyıcıları mövcud fləş kartlardan dəfələrlə sürətli olacaq. Belə ki, Rjanov adına Yarımkeçiricilər Fizika İnstitutunun əməkdaşları multiqrafen əsasında innovativ fləş kartlar hazırlayır. AZƏRTAC "planet-today.ru" saytına istinadən xəbər verir ki, 1 atom qalınlığında olan qrafen texnologiyanın ən müxtəlif sahələrində, həmçinin informasiyanın saxlanmasında tətbiq edilə bilər. Bir ədəd yaddaş çipi çərçivəsində qrafenin bir neçə qatının birləşdirilməsi məlumatların yüksək sıxlıqla yazılmasına nail olmağa imkan verir ki, bu da məlumatlara istifadənin yüksək sürətini təmin etmir. Novosibirsk alimləri hesab edirlər ki, multiqrafen gələcəyin fləş kartları üçün mükəmməl əsasdır. Ancaq belə informasiya daşıyıcılarının istehsalı hələ ki planlaşdırılmır, çünki indi alimlər fundamental tədqiqat işləri ilə məşğuldur.

## Şokolad insan beyninə tiryək kimi təsir göstərir?



Miçiqan Universitetinin alimləri belə bir qənaətə gəliblər ki, şokoladın cazibə qüvvəsinin sirri onun insan beyninə tiryək kimi təsir göstərməsindədir. Britaniyanın "Deyli teleqraf" qəzetində dərc olunmuş eksperimentin nəticəsinə görə, alimlər zamanı müəyyən ediblər ki, şokoladdan istifadə orqanizmin təbii kimyəvi enkefalin birləşməsi hasilatının artmasına səbəb olur. Bu neyropeptidlər morfinəbənzər təsirə malikdir və insanda eyforiya yaradan endorfinlər qrupuna daxildir. Tədqiqatın rəhbəri professor Aleksandra Di Feliçiantonio deyib: "Biz müəyyən etmişik ki, şokoladın beyinə təsir mexanizmi tiryəkin və ona bənzər vasitələrin təsiri kimidir. İnsan üçün şokoladın növbəti hissəsini yemək istəyini boğmaq çox çətindir". Amerika alimləri şirniyyatı sevənləri narkomanlar üçün hazırlanmış metodlarla müalicə etməyi məsləhət görmürlər. Amma artıq çəki təhlükəsi yaradan şirniyyata meyllilliyi cilovlamaq üçün iradəli olmağa çağırırlar.

## Amerika alimləri: Qəhvə iç, intihardan uzaq ol!



ABŞ-ın Harvar Universitetində aparılan araşdırmalar nəticəsində məlum olub ki, qəhvə içən adamların intihar etmə riski digərlərinə nisbətən 50 faiz daha az olur. Araşdırmaçılar 16 il ərzində 200 min adam üzərində araşdırma aparıblar. Mütəxəssislər gündə 2-4 fincan qəhvə içən adamlarla, içməyən, ya da az içən adamların psixoloji vəziyyətini qarşılaşdırıblar. Nəticədə məlum olub ki, çox qəhvə içən adamlar həyatı daha çox sevirlər. Ona görə də onların intihar etmək riski digərlərinə nisbətən 50 faiz daha azdır.

## Arıqlamaq istəyirsənsə... gündə bir dilim tort ye...

Səhər yeməyində bir dilim tort yemək arıqlamağa kömək edir. Bunu türkiyəli alimlər sübut edir. Onların bildirdiyinə görə, 90 kilo ağırlığında olan bir adam bu üsulu tətbiq edərək, 8 ayda 20 kilo arıqlaya bilər. İsraildə Hebrev Universiteti və Ariel Universitetinin mütəxəssisləri artıq çəkili 193 nəfər üzərində aparılan araşdırma əsasında müəyyən ediblər ki, səhərlər bir dilim tort yeyənlər digərlərinə nisbətən daha tez arıqlayır. İsrailli alimlər isə bildirib ki, insanların həzm sistemi səhərlər daha aktiv fəaliyyət göstərir. Onların gəldiyi nəticəyə görə, səhər yeməyində yeyilən tort gün ərzində keks və ya tort kimi qidalara olan tələbatı azaldır.

## AFFA-nın İcraiyyə Komitəsinin iclası keçirilib



Azərbaycan Futbol Federasiyaları Assosiasiyasının (AFFA) İcraiyyə Komitəsinin iclası keçirilib. AFFA-dan AZƏRTAC-a bildiriblər ki, iclasda aparılan müzakirələrdən sonra bir sıra qərarlar qəbul olunub. Müzakirələr nəticəsində "Danışılmış oyunlar və oyun nəticələrinin manipulyasiyası" ilə bağlı Bəyannamənin qəbul olunması qərara alınıb. Peşəkar futbolla bu və ya digər şəkildə məşğul olan hər bir şəxsin Bəyannaməni imzalamaqla müvafiq öhdəlik götürməsi nəzərdə tutulur. Bəyannamə AFFA tərəfindən müvafiq futbol strukturlarına təqdim olunacaq. Bundan başqa, birinci divizionda yaş və legioner limitinin müəyyənləşdirilməsinin AFFA, Peşəkar Futbol Liqası və Məşqçilər Komitəsinə həvalə olunması barədə qərar qəbul edilib. Həmçinin AFFA-nın təsisçiliyi ilə Futbolun İnkişaf Fondunun yaradılması qərara alınıb. Qurumun idarə heyəti bütövlükdə AFFA-nın İcraiyyə Komitəsinin heyətindən təşkil olunacaq. Futbolun İnkişaf Fondunun hüquqi məsələlərinin həlli və təşkilati işlərinin həyata keçirilməsi AFFA-nın baş katibliyinə tapşırılıb. İclasda 17 yaşadək futbolçulardan ibarət Azərbaycan yığmasının baş məşqçisi Rafiq Mirzəyevin öz istəyi ilə istefası qəbul olunub. U-17 Azərbaycan yığmasının baş məşqçisi vəzifəsinin müvəqqəti icrası Vüqar Məmmədə həvalə olunub. Habelə UEFA-nın tövsiyəsinə əsasən, 2017-2018-ci il mövsümündə futbol yarışlarında iştirak etmək üçün lisenziya qaydalarına dəyişikliklər haqqında təkliflər tanış olmaq və münasibət bildirmək üçün İcraiyyə Komitəsinin üzvlərinə təqdim olunub. İclasda qəbul olunan digər qərarda isə futbol veteranları Boris Xetaqurova və Adil Nadirova AFFA-nın təqaüdü verilməsi məsələsi əksini tapıb.

## "Medalların geri alınması ilə bağlı federasiyaya rəsmi məlumat daxil olmayıb"



"FloWrestling"in Azərbaycan, Ukrayna və Qazaxıstandan olan bir neçə güləşçinin Pekin-2008 və London-2012 Olimpiya Oyunlarında qazandığı medalların dopinq səbəbindən geri alına biləcəyinə dair yaydığı xəbər haqqında Azərbaycan Güləş Federasiyasının mətbuat xidmətinin rəhbəri Mayis Musayev açıqlama verib. O, SİA-ya bildirib ki, sözügedən məsələ haqda Azərbaycan Güləş Federasiyasına heç bir rəsmi məlumat daxil olmayıb: "Azərbaycan güləşçilərinin medallarının geri alınması ilə bağlı Beynəlxalq Dopinq Komitəsindən federasiyaya hər hansı rəsmi məlumat daxil olmayıb. Ona görə də hansısa saytda çıxmış bir xəbərə şərh vermək düzgün olmaz".

## Tərlan Əhmədov Ruslan Nəsirlini bağışladı



Məlum olduğu kimi, Premyer Liqanın ilk turunda "Neftçi" ilə oyunda yersiz yerə qırmızı vərəqə alaraq meydançadan qovulan AZAL-ın futbolçusu Ruslan Nəsirli baş məşqçi Tərlan Əhmədov tərəfindən əvəzedici komandaya göndərilmişdi.SİA-nın məlumatına görə, baş məşqçi artıq adıçəkilən futbolçunu bağışlayıb. Belə ki, "Qarabağ"la 4-cü tur matçına hazırlaşacaq heyətə Ruslan da adı daxil ediləcək.

## Rusiya paralimpiyaçıları 2018-ci il Qış Oyunlarına da buraxılmayacaq



Rusiya idman sahəsində daha bir zərbə alıb. Sən demə, Beynəlxalq Paralimpiya Komitəsinin Rusiya yığma komandasnın Rio-de-Janeyrodakı Paralimpiya Oyunlarına buraxılmaması barədə qərarı 2018-ci ildə Cənubi Koreyada keçiriləcək Qış Paralimpiya Oyunlarına da şamil olunur. Bu barədə Rusiya Paralimpiya Komitəsinin rəsmi saytında yerləşdirilmiş məlumatda deyilir. Buna qarşılıq olaraq, Rusiya prezidenti Vladimir Putin bəyan edib ki, onun ölkəsində Paralimpiya Oyunlarına buraxılmayan idmançıların iştirakı ilə xüsusi yarışlar təşkil olunacaq.


*Baş redaktor:*

**Bəhruz Quliyev**

*Baş redaktorun müavinləri:*

**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 32.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

*Buraxılışa məsul: Mətləb Salahov*

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in kompüter mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur

*Qəzetdə AzərTAc, SİA, APA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.*

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 5500**